Azərbaycanın ÜTT-yə
Üzvlüyünə Dəstək Koalisiyası

QİAM
Qlobal İqtisadi
Araşdırmalar Mərkəzi

# Azərbaycanın ÜTT-yə üzvlüyü və özəl sektor

## (Araşdırma nəticələrinin analitik hesabatı:2008)




**Bakı 2008**

**Müəlliflər:** **R.B. Atakişiyev, E.Ə. Mikayılov**

**Elmi redaktor:** **F.M. Məmmədov**

**Korrektor:** **R.R. Fətullayev**

***Azərbaycanın ÜTT-yə üzvlüyü və özəl sektor: Araşdırma nəticələrinin analitik hesabatı - 2008***

Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olduğu bir dövrdə özəl sektorun bu təşkilat və üzvlük prosesi haqqında məlumatlandırılması və onların bu prosesinə cəlb edilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda 10 ildən artıq bir dövrdə üzvlük prosesi istiqamətində əhəmiyyətli işlər görülməsinə baxmayaraq təəssüflər olsun ki, sahibkarların bu işlər haqqında məlumatlılıq səviyyəsi hələ də aşağıdır. Azərbaycanda özəl sektorun məlumatlılıq və ÜTT-yə üzvlükdən sonrakı yeni mühitə hazırlıq səviyyəsini qiymətləndirmək və onların üzvlük prosesində iştirak etməməsinin səbəblərini, eləcədə bu istiqamətdəki problemləri öyrənmək üçün Qlobal İqtisadi Araşdırmalar Mərkəzi Azərbaycanın 6 regionunda araşdırma apararaq mövcud vəziyyəti təhlil etmiş və Hesabat hazırlamışdır. Hesabatda Sahibkarların ÜTT-nin mahiyyəti haqqında mövcud biliklərinin, Azərbaycanın üzvlük prosesində sahibkarların iştirakı imkanları, xarici ticarət əməliyyatlarına sahibkarların münasibətləri və rayonlar üzrə ÜTT haqqında formalaşan fərqli fikirlərin müqayisəli təhlili əks olunmuşdur. Hesabatdan ÜTT sahəsində iş aparan dövlət orqanları, qeyri hökumət və beynəlxalq təşkilatlar, sahibkarlar və sahibkarları təmsil edən birliklər, eləcədə müstəqil tədqiqatçılar istifadə edə bilər.

***"Bu nəşrin çapı ABŞ Beynəlxalq İnkişaf Agentliyinin Demokratiya və İdarəetmə şöbəsinin dəstəyi ilə, ABŞ Beynəlxalq İnkişaf Agentliyi və "Counterpart İnternational" arasında imzalanmış No.112-A-00-05-00050-00 saylı qrant müqaviləsinin şərtlərinə uyğun olaraq mümkün olmuşdur. Burada ifadə olunan fikirlər müəllifə məxsusdur və heç də hökmən ABŞ Beynəlxalq İnkişaf Agentliyi və ya "Counterpart İnternational"ın fikirlərini əks etdirmir".***

***ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin Vətəndaş Cəmiyyəti Layihəsi*** *Qeyri Kommersiya Hüququ üzrə Beynəlxalq Mərkəzinin tərəfdaşlığı ilə Counterpart İnternational Təşkilatı tərəfindən həyata keçirilən təşəbbüsdür. Proqramın məqsədi təmsilçilik əsasında qurulmuş və aktiv fəaliyyət göstərən demokratiyanın yaranması istiqamətində çalışaraq, Azərbaycan hökuməti ilə vətəndaşlar arasında olan dialoqu inkişaf etdirməyə yardım etməkdir.*

**©Qlobal İqtisadi Araşdırmalar Mərkəzi**

# MÜNDƏRİCAT

1. Araşdırma nəticələrinin xülasəsi ....................................................3
2. Araşdırma prosesinin qısa şərhi....................................................5
3. ÜTT və onun fəaliyyəti haqqında sahibkarların bilikləri ........................6
4. Azərbaycanın ÜTT-yə üzvlüyünə və onun ölkə iqtisadiyyatına təsirlərinə sahibkarların münasibəti....................................................11
5. Azərbaycanın ÜTT-yə üzvlüyü prosesinə sahibkarların cəlb olunması problemləri və onların həlli yolları............................................22
5.1. Sahibkarların Azərbaycanın ÜTT-yə üzvlük prosesində iştirak etməyə maraqları ....................................................................22
5.2. Sahibkarların ÜTT-yə üzvlük prosesinin müxtəlif istiqamətlərində iştirak imkanları....................................................................25
5.2.1. Tariflər üzrə ikitərəfli danışıqlar ............................................26
5.2.2. Qanunvericilik bazasının təkmilləşdirilməsi ....................................30
5.2.3. Xidmətlər üzrə ikitərəfli danışıqlar ..........................................33
5.2.4. Kənd təsərrüfatı üzrə çoxtərəfli danışıqlar......................................35
6. Sahibkarların xarici ticarət üzrə aparılan əməliyyatların mövcud vəziyyətinə yanaşmaları ....................................................36
7. Araşdırma nəticələrinin qiymətləndirilməsi ........................................40
8. Araşdırma nəticələrinin sorğu aparılmış rayonlar üzrə müqayisəsi ....................................................41

## 1. Araşdırma nəticələrinin xülasəsi

Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlüyü prosesi haqqında özəl sektorun məlumatlandırılması və onların aparılan danışıqlara cəlb edilməsi əhəmiyyətli məsələlərdən biridir. Çünki, ÜTT-yə üzvlüklə bağlı bütün işlərin hökumət tərəfindən görülməsinə baxmayaraq, üzvlüyün nəticələrindən təsirə məruz qalacaq əsas tərəf özəl sektordur. Bu baxımdan da ÜTT üzvləri ilə danışıqlara cəlb olunmuş dövlət orqanları hər vasitə ilə yerli sahibkarların maraqlarını güdməyə çalışırlar. Lakin, buna baxmayaraq özəl sektorun təmsilçilərinin belə bir vacib məsələdə iştirakı hələ də aşağı səviyyədədir. Bu səbəbdən də hökumət ÜTT-nin üzvləri ilə apardığı müzakirələri, xüsusilə, mallar və xidmətlər üzrə ikitərəfli, öhdəliklərin götürülməsi üzrə çoxtərəfli danışıqları sahibkarların iştirakı olmadan aparır. Belə vəziyyətdə isə hökumət özəl sektorun tələblərinə söykənən qarşı dövlətlərin nümayəndələri ilə yerli biznesin rəyinə əsaslanmadan öz mövqeyini bildirmək məcburiyyətində qalır. Çünki, Azərbaycanla xarici ticarətdə maraqlı olan ölkələr respublikamız qarşısında öz şərtlərini məhz milli sahibkarları tərəfindən qaldırılmış arqumentlər əsasında qoyurlar. Buna görə də, sahibkarların bu prosesdə iştirakı mühüm əhəmiyyət kəsb edir və danışıqların uğuruna müsbət təsir göstərər.

Təşkilatımızın ekspertlərinin fikrinə görə, Azərbaycanda sahibkarların ÜTT-yə üzvlük prosesində yaxından iştirak etməməsinin səbəblərindən biri də onların bu təşkilat və respublikamızın ona daxil olmasının iqtisadi təsirləri haqqında yetərincə məlumatlara malik olmamalarıdır. Məhz buna görə də 10 ildən artıq bir müddətdə ölkəmizin ÜTT-yə üzvlüyü prosesinin getməsinə baxmayaraq, sahibkarlar hələ də bu məsələdə passivlik göstərərək danışıqlar çərçivəsində malik olduqları funksiyaları yerinə yetirməkdən kənarda qalırlar. Yeri gəlmişkən onu da bildirək ki, yerli sahibkarların üzvlük prosesində baş verən yenilikləri ardıcıl olaraq izləməsi onların Azərbaycan ÜTT-yə daxil olduqdan sonra formalaşacaq biznes və rəqabət mühitinə hazır olmaları baxımından da mühüm əhəmiyyət kəsb edir. Əgər, sahibkarlar onları gözləyən yeni rəqabət mühitinə indidən tədarük görməsələr onda, onlar gələcəkdə bir sıra problemlərlə qarşılaşacaqlar.

Yuxarıda qeyd olunan məsələlərdən irəli gələrək, Qlobal İqtisadi Araşdırmalar Mərkəzi ölkəmizdə sahibkarların ÜTT haqqında məlumatlılıq səviyyəsini, bu təşkilata üzvlük prosesində onların iştirakını və ÜTT-yə üzvlüyün ayrı-ayrı aspektlərinə münasibətlərini, üzvlükdən sonra özəl sektorun yeni mühitə hazırlıq səviyyəsini qiymətləndirmək məqsədilə respublikanın bir sıra bölgələrində fəaliyyət göstərən sahibkarlar arasında sorğu aparmışdır. Sonradan həmin materiallar əsasında təşkilatımızın ekspertləri tərəfindən geniş araşdırma həyata keçirilmişdir.

Aparılan bu araşdırmanın ümumi nəticəsi kimi onu qeyd edə bilərik ki, sahibkarlar ÜTT haqqında müəyyən biliklərə malik olsalar da, onun fəaliyyətinin konkret istiqamətləri və gördüyü işlər haqqında təfsilatlı məlumatlara malik deyillər. Belə ki, keçirilən sorğuda ÜTT-nin

mahiyyətinə dair qoyulmuş suallara sahibkarlar 625 yerdə doğru (74 %), 225 yerdə isə (26%) yanlış cavab vermişdirlər. Lakin, onu da nəzərdən qaçırmayaq ki, sahibkarlar Sorğu blanklarını keçirilən seminarlar vaxtı, ekspert tərəfindən məlumatlandırıldıqdan sonra doldurmuşdular. Bundan belə bir qənaətə gəlmək olar ki, seminarlarda iştirak etməyən digər yerli sahibkarların bu məsələlərə münasibətdə doğru cavabları daha aşağı olacaqdır.

Qeyd edək ki, ekspertlərimizin fikrinə görə ÜTT haqqında sahibkarların biliklərinin aşağı olmasında və onlarda yanlış təsəvvürün formalaşmasında, KİV tərəfindən bir sıra hallarda səhv məlumatların ictimaiyyətə çatdırılmasının da rolu olmuşdur. Belə ki, aparılan araşdırmada sahibkarların ÜTT-nin fəaliyyət sahəsinə əhalinin sosial müdafiəsi və hərbi münaqişələrin həlli kimi məsələləri aid etmələri və bu qurumun məqsədlərini dövlətlərin siyasi problemlərinin həllində görmələri onların nə dərəcədə yanlış təsəvvürə malik olduqlarını büruzə verir. Belə faktlara ÜTT-nin daxili bazara təsirləri zamanı verilmiş cavablarda da rast gəlmək olar.

Sorğuda iştirak edən 70 sahibkardan 14-ü "ÜTT-yə üzvlükdən sonra yerli sahibkarların daxili bazarda mövqelərinin möhkəmlənəcəyini", 20 sahibkar isə "yerli məhsulların satış həcminin artacağını" qeyd etmişdilər. Sahibkarlardan ÜTT-yə üzvlükdən gözlədikləri əsas səmərələr kimi 32-si "daha ucuz qiymətə yeni texnika və texnologiyalar əldə etmək imkanlarının artmasını", 30-u "biznesi tənzimləyən qanunvericiliyin təkmilləşməsini", 34-ü isə "daxili bazarda daha ucuz və yüksək keyfiyyətli məhsulların çoxalacağını" göstərmişdir. Bununla yanaşı sahibkarların 31-i Azərbaycanın ÜTT-yə üzvlüyündən sonra rəqabətin artacağı təqdirdə dövlətin yerli istehsala subsidiya ayırmasını davam etdirməsini məqsədəuyğun hesab etmişdilər. Qeyd edək ki, ÜTT-nin prinsiplərinə görə yerli sahibkarlara dövlət tərəfindən ayrılan subsidiyalar məhdudlaşdırılmalıdır. ÜTT-nin daxili bazarın qorunması üçün nəzərdə tutduğu tədbirlər barəsində sorğu blankında qoyulmuş sualın cavabının digər variantlarına isə sahibkarlar tərəfindən ümumiyyətlə münasibət bildirilməmişdir. Bu isə sahibkarların ÜTT-nin daxili bazarın qorunması ilə bağlı dövlətlərə verdiyi qoruyucu alətlər haqqında məlumatlarının az olmasını göstərir.

Üzvlük prosesində sahibkarların iştirakı məsələlərinə gəldikdə isə bildirək ki, onların 45-i respublikamızın ÜTT-yə üzvlüyü prosesində yaxından iştirak etmək arzusundadır və bu məsələlərin yalnız hökumətin iş olmadığı qənaətindədirlər. Lakin, sahibkarların bu danışıqlar prosesinə cəlb olunmasının konkret mexanizmlərinin işlənməməsi və bu haqda onların lazımı informasiyalarla təmin olunmaması danışıqlarda özəl sektorun iştirak etmək imkanlarını məhdudlaşdıran amillərdir. Ümumilikdə isə sahibkarların üzvlük prosesində iştirak etməkdə daha çox maraqlı olduqları birinci istiqamət tariflər üzrə ikitərəfli danışıqlardır. Ən az qeyd olunan cavab isə xidmətlər üzrə ikitərəfli danışıqlardır ki, bunun da səbəbi sorğu aparılan sahibkarların əksəriyyətinin xidmət sektorunda fəaliyyət göstərməmələridir.

Sorğu aparılan sahibkarların təxminən yarısı (34 nəfəri) ikitərəfli danışıqlarda gömrük idxal rüsumlarının aşağı salınmasının tərəfdarıdırlar. Xidmətlər üzrə ikitərəfli danışıqlarda isə əksər sahibkarlar (33 nəfəri) bank sektorunun liberallaşdırılmasını təklif edirlər. Danışıqlar prosesində sahibkarların iştirak etmək istədiyi ikinci istiqamət qanunvericilik bazasının ÜTT tələblərinə uyğun təkmilləşdirilməsidir. Burada sahibkarlar əsas diqqətin gömrük qanunvericiliyinə yönəldilməsini məqsədəuyğun hesab edirlər.

Sorğu zamanı sahibkarların məhsul ixracı prosesinə münasibətləri öyrənilmiş və bu sahədə mövcud vəziyyətin ÜTT-yə üzvlükdən sonrakı vəziyyətlə müqayisəli təhlili aparılmışdır. Sahibkarlar məhsul ixrac etməməklərinin başlıca səbəbləri kimi gömrük məntəqələrində süni əngəllərin yaradılmasını (22 nəfər) və ixrac üçün tələb olunan xərclərin yüksək olmasını (21 nəfər) göstərirlər. Bununla yanaşı sahibkarlar xaricə məhsul ixracı zamanı idxal edən ölkələrdə gömrük rüsumlarının, vergilərin və yığımların yüksək olmasını qarşılaşdıqları əsas çətinliklər kimi qeyd etmişdilər.

Araşdırma nəticəsində o da məlum olmuşdur ki, sorğu aparılan bölgələr içərisində Şəki rayonunun sahibkarları ÜTT haqqında məlumatlılıq səviyyəsinə, təklif verən sahibkarların sayına və keçirilən tədbirlərdə fəallıqlarına görə digər beş şəhərdən irəlidədirlər.

## 2. Araşdırma prosesinin qısa şərhi

Qeyd edək ki, araşdırmada istifadə edilən sorğu blankı 20 sualdan ibarət olmuşdur. Suallardan 7-si ÜTT haqqında məlumatlılığın ümumi səviyyəsini, 4-ü ÜTT-nin sahibkarlığa mümkün təsirlərini, 2-si sahibkarların üzvlük prosesində iştiraklarını, 4-ü sahibkarların üzvlük prosesinin müxtəlif aspektlərinə münasibətlərini, 2-si isə sahibkarların ixrac imkanlarını məhdudlaşdıran amilləri qiymətləndirmək məqsədilə hazırlanmışdır. Suallara qoyulan cavablardan biri və ya bir neçəsi düzgün cavab kimi yazılmışdır və buna görə də sahibkara bir neçə variantı seçmək imkanı verilmişdir. Sorğu nəticələrinin təhlili də sualları cavablandıran sahibkarların sayına görə deyil, seçilən cavab variantlarının miqdarına görə aparılmışdır. Ona görə də verilən cavabların sayı sahibkarların sayından çox ola bilər.

Qeyd edək ki, suallar və onlara verilən cavabları müəyyənləşdirərkən bir çox xüsusi məqamlar nəzərə alınmışdır. Belə ki, müxtəlif sualların cavabları arasında məntiqi bağlılıq müəyyənləşdirilmiş və onların hər birinin cavablandırılması əsasında sahibkarların məsələyə münasibətinin dolayı yolla qiymətləndirilməsi nəzərdə tutulmuşdur. Araşdırmanın nəticələri də məhz bu cür müqayisəli təhlillər əsasında əvvəlcədən nəzərdə tutulmuş parametrlər üzrə qiymətləndirmə aparmaqla əldə edilmişdir. Yeri gəlmişkən onu da qeyd edək ki, sahibkarların seçdikləri cavablar içərisində bir sıra hallarda ziddiyyətli məqamlar da ortaya çıxmışdır ki, bu da onların sualların cavablandırılmasına

diqqətlə yanaşmamaqlarından qaynaqlanır. Həmçinin, bəzi sahibkarlar sorğu blankını tam doldurmamışdır. Lakin, sorğunun təhlili onların bu işə necə yanaşmasından asılı olmayaraq qeyd edilmiş cavablar əsasında aparılmış və belə hallar sahibkarın məsələyə münasibəti kimi qiymətləndirilmişdir.

Araşdırmanı aparılması zamanı müqayisəli təhlillərdən istifadə olunmuşdur ki, bu da konkret məsələ haqqında daha məntiqli və dəqiq nəticə çıxarmağa imkan vermişdir. Müqayisəli təhlillər isə 3 səviyyədə aparılmışdır: 1) sahibkarın müxtəlif suallara verdikləri cavabların müqayisəsi əsasında; 2) konkret məsələyə bir neçə sahibkarın münasibətinin müqayisəsi; 3) regionlardakı fərqli tendensiyaların müqayisəsi.

Sorğu Azərbaycanın Lənkəran, Quba, Şəki, Gəncə və Əlibayramlı kimi aparıcı şəhərlərində iqtisadiyyatın istehsal, xidmət, kənd təsərrüfatı və ticarət sahələrində fəaliyyət göstərən 70 sahibkar arasında "Azərbaycanın ÜTT-yə üzvlüyünün özəl sektor üçün səmərələri" mövzusunda keçirilən seminarların gedişində aparılmışdır. Məhz bu səbəbdən sahibkarlar sorğu blanklarını keçirilən seminarlar vaxtı, ekspert tərəfindən məsələ haqqında məlumatlandırıldıqdan sonra doldurmuşdular. Bundan belə bir qənaətə gəlmək olar ki, seminarlarda iştirak etməyən digər yerli sahibkarların tədbirdə əhatə olunan məsələlərə münasibətdə doğru cavabları daha aşağı olacaqdır.

## 3. ÜTT və onun fəaliyyəti haqqında sahibkarların bilikləri

Sahibkarlar arasında aparılan araşdırmanın ümumi nəticəsi kimi onu qeyd edə bilərik ki, onlar ÜTT haqqında ilkin anlayışlara malik olsalar da, bu qurumun konkret fəaliyyəti və gördüyü işlər barəsində müfəssəl məlumatlara malik deyillər. Belə ki, Diaqram 1-də göstərildiyi kimi sorğu iştirakçıları tərəfindən suallara qoyulmuş doğru cavablar 625 yerdə, yanlış cavablar isə 225 yerdə qeydə alınmışdır.




**Diaqram 3.1. Sualların cavablarında doğru və səhv cavabların payı**

Diaqram 3.1-dən göründüyü kimi, verilən sualların cavablarına əsasən sahibkarların ÜTT haqqında formalaşan biliklərinin 74%-i doğru, 26%-i isə yanlış məlumatlardan ibarətdir. Sahibkarların ÜTT-nin konkret hansı aspektləri haqqında daha çox doğru və yanlış biliklərə malik olmasının qiymətləndirilməsi də maraqlı nəticələrdən xəbər verir. Belə ki, yanlış cavablar əsasən ÜTT-nin mahiyyəti və onun Azərbaycan iqtisadiyyatına göstərəcəyi təsirləri ilə bağlı məsələlərdə müşahidə olunur. Fikrimizcə, belə yanaşma ÜTT – nin mahiyyəti haqqında sahibkarların yetərincə biliyə malik olmamasından irəli gəlir. Çünki, sahibkarların ÜTT-nin mahiyyəti haqqında dolğun məlumata malik olması onlar tərəfindən, bu təşkilata üzvlüyün öz fəaliyyətlərinə təsirlərini də düzgün qiymətləndirməyə imkan verir. Sahibkarlarla aparılan müzakirələr zamanı müşahidə olunan tendensiya da onu göstərir ki, onlar ÜTT-ni digər beynəlxalq təşkilatlarla müqayisə edir və üzvlüyün onlara aid olmadığını düşünürlər. Sorğuda iştirak edən sahibkarların əksəriyyətini daha çox cari problemlərinin həlli yolları maraqlandırır. Bu səbəbdən də onlar ÜTT haqqında biliklərini artırmaqda o qədər də maraqlı olmadıqlarını irəli sürürdülər. Bu isə əslində yerli sahibkarlar üçün mənfi bir haldır. Çünki, bu vaxta qədər Azərbaycan elə bir təşkilata üzv olmayıb ki, onun ÜTT-yə üzvlük qədər özəl sektora birbaşa təsirləri olsun. Digər beynəlxalq təşkilatlarla eyniləşdirmə aparan sahibkarlar ÜTT-ni də həmin təşkilatlar kontekstindən qiymətləndirirlər. Lakin, əvvəldə də qeyd etdiyimiz kimi, ÜTT-yə üzvlük prosesi hökumət orqanları tərəfindən aparılsa da, üzvlüyün nəticəsində daha çox təsirə məruz qalan tərəf sahibkarlardır.

Azərbaycan ilə ÜTT üzvləri arasında aparılan danışıqların mərkəzində xarici və yerli iş adamlarına daxili bazarda biznes fəaliyyəti ilə məşğul olmaq üçün bərabər şəraitin yaradılması və idxal məhsullarının ölkəyə girişini asanlaşdırmaq durur. Bu baxımdan da Azərbaycan hökuməti milli maraqlarımızın təmini baxımından həmin prosesdə digər tərəfdaş dövlətlər qarşısında yerli sahibkarların mövcud vəziyyətini önə çəkərək əsaslandırılmış arqumentlərlə çıxış edir. Beləliklə, danışıqların nəticəsində xarici və yerli iş adamlarına hansı məsələlər üzrə bərabər hüquqların verilməsi müəyyənləşdirilir. Danışıqlar bitdikdən sonra isə razılaşdırılmış şərtlərdən həm yerli, həm də xarici sahibkarlar bəhrələnəcəklər. Deməli, indiki vəziyyətdə yerli sahibkarların bu prosesdən kənarda qalması və buna maraq göstərməmələri son nəticədə onların özlərinin ağır aqibətlə üzləşəcəyindən xəbər verir. Bu məsələnin sahibkarlara çatdırılması və onların biganə münasibətlərinin dəyişdirilməsi olduqca mühüm məsələdir. Qeyd edək ki, QİAM-ın rayonlarda həyata keçirdiyi seminarların sonunda sahibkarlar ÜTT-nin nəinki onların strateji məqsədlərinə, hətta gündəlik fəaliyyətlərinə təsir edəcəyini dərk etdikdən sonra təşkilata üzvlük prosesi ilə yaxından maraqlanmağa başladılar.

Növbəti diaqram (Diaqram 3.2) isə ÜTT-nin prinsipləri, məqsədləri, vəzifəsi, funksiyaları, fəaliyyət sahəsi haqqında sorğu blankında qoyulmuş suallara sahibkarların verdikləri doğru və yanlış cavablarını əks etdirir.




**Diaqram 3.2. ÜTT-nin mahiyyəti haqqında verilən suallara sahibkarların doğru və yanlış cavabları**

Diaqram 3.2-dən göründüyü kimi sahibkarların ÜTT haqqında bilikləri müəyyən istiqamətlərdə məqbul səviyyədə olsa da əsas məsələlər üzrə yetərincə deyil. Fikrimiczə, ÜTT-nin onlara təsirini düzgün qiymətləndirmək üçün sahibkarlar bu qurumun fəaliyyət sahələrini dəqiq bilməlidirlər. Sahibkarlardan 46 -sı sualda qoyulmuş variantlardan düzgün olaraq ÜTT-nin fəaliyyət sahəsinə "əmtəə və xidmətlər üzrə beynəlxalq ticarət"in aid olduğunu seçsələr də, 14-ü səhv olaraq "əhalinin sosial müdafiəsi"-ni, 3-ü isə "hərbi münaqişələrin həlli" kimi aidiyyəti olmayan cavabları qeyd etmişdir. Bu isə respondentlərin təxminən yarısının ÜTT haqqında ən sadə biliklərə belə malik olmadığını və ya onlarda yanlış təsəvvürün olmasını bir daha sübut edir. Xüsusilə "hərbi münaqişələrin həlli" variantını seçən sahibkarlar ÜTT –ni bir siyasi təşkilat kimi qəbul edirlər. Çünki, sorğu blankındakı digər bir sualda həmin sahibkarlar ÜTT-nin başlıca vəzifəsi kimi "ölkələrin siyasi maraqlarının dəstəklənməsi" və "siyasi münaqişələrin həlli istiqamətində tədbirlər həyata keçirmək" variantlarını seçiblər. Bu isə ÜTT-nin mahiyyətindən nəzərəçarpacaq dərəcədə uzaqlaşma deməkdir.

ÜTT-nin məqsədləri ilə bağlı suallara verilən cavablar da maraq doğurur. Bu sualı qoymaqda məqsədimiz sahibkarların nələrin ÜTT-nin məqsədinə aid olan və olmayan məsələlər nələrin olmadığı haqqında təsəvvürlərini öyrənməkdir. Çünki, sahibkarların ÜTT-nin məqsədlərini dərk etmələri onlara bu təşkilatın biznes mühitinə mümkün təsirlərini də düzgün qiymətləndirməyə imkan verər.

Məlum olduğu kimi ÜTT-nin əsas məqsədi istehsalın, məhsul və xidmət üzrə ticarətin genişləndirilməsi, gəlirlərin artırılması və tam məşğulluğun təmin edilməsi və beləliklə də iqtisadi

inkişafın və əhalinin həyat səviyyəsinin yüksəldilməsidir[1]. Sorğu zamanı sahibkarlar 47 yerdə ÜTT-nin məqsədlərinə nələrin aid olmadığını düzgün qeyd etsələr də, 15 sahibkar "maneəsiz beynəlxalq ticarət" variantını da seçmişdir. Yəni, ÜTT-nin ən əsas məqsədi maneəsiz beynəlxalq ticarət olduğu halda sahibkarlardan 15-i bunu ÜTT-yə aid olmadığını qeyd ediblər. Doğru cavab verən sahibkarların hamısı isə sualı axıradək cavablandırmamışdır. Çünki, onlar cavablarında cəmiyyətin iqtisadi maarifləndirilməsini ÜTT-nin məqsədlərindən biri kimi göstərmişdilər. Lakin, ÜTT cəmiyyətin deyil, üzv ölkələrin Hökumətlərinin ÜTT qaydaları haqqında maarifləndirilməsi işi ilə məşğul olur. Fikrimizcə, bu şəkildə cavablar sahibkarların sualların mahiyyətini anlamamalarının, ya da ÜTT haqqında dolğun təsəvvürə malik olmamalarının təzahürüdür.

ÜTT-nin funksiyaları ilə bağlı suala sahibkarların əsasən düz cavab verməsi müsbət bir hal kimi qeyd edilə bilər. ÜTT-nin funksiyaları dedikdə burada onun Katibliyin funksiyaları nəzərdə tutulur. Ümumiyyətlə ÜTT-nin Katibliyinin funksiyalarına[2] aşağıdakılar daxildir:

- ÜTT-nin hüquqi əsasını təşkil edən çoxtərəfli ticarət sazişlərinin qəbul olunmasına və qəbul olunan sazişlərin yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsi;
- ÜTT-yə üzv dövlətlər arasında ticarət danışıqları üçün şəraitin yaradılması;
- üzv dövlətlər arasındakı ticarət mübahisələrinin həll edilməsinə köməklik göstərilməsi;
- ÜTT- yə üzv dövlətlərin ticarət sahəsindəki siyasətlərinə nəzarətin həyata keçirilməsi;
- digər beynəlxalq təşkilatlarla, xüsusilə də Dünya Bankı və Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlıq edilməsi.

Lakin, sahibkarlardan 6-sı ÜTT-nin funksiyalarının üzv ölkələrin sosial siyasətlərinə dair təkliflər verilməsi olduğu qənaətindədir ki, həmin şəxslər də digər sualların cavablarında ÜTT-ni əsasən sosial-siyasi təşkilat kimi qəbul edənlərdir. ÜTT-nin prinsiplərinə gəldikdə isə sahibkarların böyük əksəriyyəti bu sualı doğru cavablandırmışdır. Səbəb isə seminarın gedişində sahibkarlara ÜTT-nin prinsipləri haqqında daha geniş məlumatın verilməsi və onların həmin məlumatları lazımi səviyyədə mənimsəmələridir. Buradan çıxış edərək demək olar ki, seminarda əhatə olunan məsələlər sahibkarlar tərəfindən yaxşı qavranılmışdır. Yeri gəlmişkən məlumat üçün qeyd edək ki, ÜTT-nin prinsipləri[3] aşağıdakılardan ibarətdir:

- milli rejim;
- ən əlverişli ölkə rejimi;

[1] Preamble of the Agreement establishing the World Trade Organization, Marrakesh, 1994

[2] Article III of the Agreement establishing the World Trade Organization, Marrakesh, 1994

[3] Finger M. and A. Winters (2002), in Hoekman, B., A. Mattoo and P. English, eds., Development, Trade and the WTO: A Handbook, Washington, DC: The World Bank.

– ticarətin tənzimlənməsində tarif metodlarından istifadə olunması;
– ticarətdə kəmiyyət məhdudiyyətlərinin aradan qaldırılması;
– daxili bazarın ÜTT qaydaları əsasında qorunması;
– şəffaflıq;
– ticarət mübahisələrinin danışıqlar yolu ilə həll olunması;
– təhlükəsizlik tədbirləri çərçivəsində azad ticarət qurulması;
– inkişaf etməkdə olan ölkələr üçün beynəlxalq ticarətdə güzəştlərin edilməsi;
– bayndinq və icra edilə bilən öhdəliklərin tətbiq olunması;

Növbəti hissələrdə ÜTT-nin beynəlxalq ticarətdəki mövcud maneələri aradan qaldırılması istiqamətindəki cəhdlərinin səbəblərinə sahibkarların münasibətləri ilə bağlı təhlil aparılmışdır. Bununla əlaqədar olaraq aşağıdakı diaqrama (Diaqram 3.3.) baxaq.




**Diaqram 3.3. ÜTT-nin ticarətdə məhdudiyyətlərin aradan qaldırmasının səbəbləri**

Diaqramdan göründüyü kimi sahibkarlardan 35-i hesab edir ki, məhdudiyyətlərin aradan qaldırılması ticarətin inkişafına və iqtisadi artıma səbəb olur. Bu isə ÜTT-nin əldə etmək istədiyi nəticələrdəndir. Çünki, qloballaşan iqtisadi məkanda ölkələr arasında ticarət əlaqələrinin genişlənməsi hər bir iştirakçı dövlətin milli iqtisadiyyatının inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Bununla belə daxili bazarın qorunması və ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi kimi məsələlər üzrə də problemlər yaranır. Sahibkarların bu variantı seçməsi ÜTT məqsədləri baxımından tam məntiqə uyğundur. Lakin, digər 9 sahibkar yanlış cavab kimi “ticarətdə qoyulan məhdudiyyətlər ölkə iqtisadiyyatının inkişafına səbəb olur” variantını seçmişlər. Birinci

variantda idxalda məhdudiyyətləri aradan qaldırmaqla liberal ticarət və yüksək rəqabət şəraitində daxili bazarın inkişafı nəzərdə tutulduğu halda, ikinci variantda bunun əksinə olaraq məhdudiyyətlərin qoyulması yolu ilə daxili bazarın inkişafını nəzərdə tutur. Beləliklə, bu variantları qoymaqda məqsədimiz özəl sektorun daxili bazarı məhdudiyyətlər qoymaqla gec inkişafı və ya məhdudiyyətləri aradan qaldırmaqla çətinliklərlə üzləşsələr də belə sürətli inkişaf modellərindən hansına daha çox üstünlük verdiyini müəyyənləşdirmək idi. Göründüyü kimi sahibkarlar ÜTT-nin təşviq etdiyi liberallaşma yolu ilə inteqrasiya şəraitində inkişaf variantına daha çox üstünlük verirlər ki, bu da onların ÜTT-yə üzvlüyü dəstəkləməsi deməkdir.

Buradan çıxan nəticəyə əsaslanaraq qeyd edək ki, dövlət orqanları, beynəlxalq təşkilatlar və qeyri-hökumət qurumları tərəfindən ÜTT-nin mahiyyəti, tənzimlədiyi məsələlər, sazişləri, üzvlük prosesi və digər mövzularda rayonlarda silsilə seminarların keçirilməsi məqsədəuyğun olardı.

## 4. Azərbaycanın ÜTT-yə üzvlüyünə və onun ölkə iqtisadiyyatına təsirlərinə sahibkarların münasibəti

Azərbaycanın ÜTT-yə üzvlüyünün mühüm məsələlərindən biri də bunun ölkənin iqtisadi inkişafına nə kimi töhfə verəcəyidir. Cəmiyyətdə bu məsələ ətrafında geniş müzakirələr getsə də hələ də ÜTT-nin ölkə iqtisadiyyatına təsir imkanları ətraflı qiymətləndirilməyibdir. Nəticədə Azərbaycan ictimaiyyətində və sahibkarlar arasında ölkəmizin ÜTT-yə üzvlüyündən sonra yerli istehsalın zəifləyəcəyi, daxili bazarda xarici firmaların hökmran mövqe tutacağı barəsində bir sıra təsəvvürlər yaranmışdır. Bu səbəbdən də ÜTT-nin səmərələri və daxili bazara mümkün təsirləri haqqında özəl sektorun dolğun məlumata malik olması, onların bu prosesdə düzgün mövqe tutması ən önəmli məsələlərdəndir. Odur ki, sorğuda sahibkarlarda ÜTT-nin onlara mümkün təsirləri ilə bağlı formalaşan fikirləri öyrənilib. Məhz bu nəticələr əsasında Azərbaycanın özəl sektorunun ÜTT-nin təsirləri haqqında nə dərəcədə dolğun biliklərə malik olduğu və bu biliklərin səviyyəsinə uyğun onların üzvlükdən sonra hansı çətinliklərlə üzləşəcəklərini nə dərəcədə dərk etmələri qiymətləndirilmişdir.

Burada bir haşiyəyə çıxaraq ÜTT üzvü olan bir sıra ölkələrdə beynəlxalq ekspertlər tərəfindən aparılan araşdırmalar nəticəsində ÜTT-nin həmin dövlətlərin özəl sektorunun inkişafına göstərdiyi müsbət təsirləri üzrə gəldikləri nəticələri qeyd edək:

1. İnvestisiya mühitinin yaxşılaşması və investisiya cəlbi imkanlarının artması.
2. Gömrük və xarici ticarət prosedurlarının daha da şəffaflaşması və sadələşməsi.
3. Biznesə çəkilən xərclərin azalması.
4. Qanunvericilik bazasının təkmilləşməsi.
5. Azad rəqabət mühitinin formalaşması və inhisarçılığın azalması.

6. Sahibkarlıq fəaliyyətinə yersiz müdaxilələrin və korrupsiya hallarının azalması.
7. İnflyasiyanın səviyyəsinin aşağı düşməsi.
8. Qeyri neft sektorunun inkişafı və bazarın diversifikasiyası.
9. Bazarın institusional dayaqlarının inkişafı.
10. Xidmət bazarının inkişafı və investisiyaların artması.
11. Digər ölkələrin ərazilərində azad və diskriminasiyasız ticarətin əldə olunması.
12. Sahibkarların digər ölkələrin ticarət rejiminə nəzarət və bu rejimdə iştirak etmək imkanı əldə etməsi.
13. Beynəlxalq ticarətdə hüquqların qorunmasına zəmanət verən mübahisələrin həlli mexanizminə çıxışın əldə olunması.
14. Əqli mülkiyyət hüquqlarının daha yaxşı müdafiəsi.
15. Standartların tələblərinə uyğun məhsul istehsalına daha asan nail olunması.
16. Yeni texnika və texnologiyalara çıxışın asanlaşması
17. Keyfiyyətli və rəqabətə davamlı məhsul istehsalı imkanlarının artması.

İndi isə sahibkarların bu səmərələrdən hansılarına xüsusi önəm vermələrini və hansı itkilərin onları gözlədiyinə münasibətlərini təhlil edək. Ümumiyyətlə, ÜTT-nin təsirləri ilə bağlı suallar iki istiqamətdə - səmərələr və gözlənilən mənfi nəticələr baxımından qoyulmuşdur. ÜTT-nin səmərələri və gözlənilən mənfi təsirləri ilə bağlı suallar isə özlüyündə biznes mühitə, istehlak bazarına və istehsalçılara təsirləri üzrə təsnifləşdirilmişdir. Sahibkarların məsələyə münasibətini ÜTT-nin istehsalçılara təsiri ilə bağlı suala verdikləri cavablarla birbaşa, biznes mühitə və istehlak bazarına təsirləri ilə bağlı suallara verdikləri cavablar əsasında isə dolayısı ilə qiymətləndirmə aparılacaq.

Əvvəlcə sahibkarların ÜTT-yə üzvlüyünün yerli istehsalçılara nələr vəd etdiyinə münasibətlərini təhlil edək. Bununla bağlı qoyulmuş suala sahibkarlar aşağıdakı diaqramda göstərildiyi kimi cavablar vermişlər.




**Diaqram 4.1. ÜTT-yə üzvlüyün yerli istehsalçılara mümkün təsirləri**

Suala verilən cavab variantlarının hər birini ayrılıqda təhlil edək. Yuxarıdakı diaqramdan göründüyü kimi sahibkarlardan 32-si hesab edir ki, üzvlük nəticəsində onların müasir texnika və texnologiyaları əldə etmək imkanları asanlaşacaqdır. Ümumiyyətlə, Azərbaycan istehsalçıları üçün mühüm məsələlərdən biri də ən son avadanlıqları əldə etməklə daha keyfiyyətli və rəqabətə davamlı məhsullar istehsal etməkdən və beləliklə də ixrac imkanlarını genişləndirməkdən ibarətdir. Lakin, regionlarda fəaliyyət göstərən sahibkarların əksəriyyəti hələ də köhnə texnika və texnologiyalardan istifadə edirlər ki, bu da onlara yüksək rəqabət şəraitində bazara keyfiyyətli məhsullar çıxartmağa imkan vermir. Onların yeni avadanlıqlar əldə etmək imkanlarının məhdudluğu maliyyə imkanlarının olmaması və peşəkar mütəxəssislərin yoxluğu ilə əlaqələndirilir. Ona görə də sahibkarlar müəssisələrinin daxilində islahatların aparılmasının zəruri olduğunu dərk etsələr də qeyd etdiyimiz bu və ya digər səbəblər üzündən bunu həyata keçirə bilmirlər. Bu səbəbdən sahibkarlar Azərbaycanın ÜTT-yə üzvlüyünün onların yuxarıda göstərilən problemlərinin həllinə müsbət təsir edəcəyinə ümid bəsləyirlər.

Diaqram 4.1-də sahibkarlardan 26-sı Azərbaycanın ÜTT-yə üzvlüyünün qanunvericilik bazasının bu qurumun tələbələrinə uyğunlaşdırılması istiqamətində səmərəli olacağını düşünürlər. Fikrimizcə, mediada ölkəmizin ÜTT-yə üzvlüyü prosesində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində aparılan islahatların daha çox işıqlandırılması sahibkarlar arasında bu məsələ barəsində müfəssəl fikrin formalaşmasına gətirib çıxarmışdır. Lakın, KİV-də geniş məlumat

yayılmasına baxmayaraq sahibkarlardan yalnız 26-sı yəni, sorğuda iştirak edənlərin 37 %-i qanunvericilik bazasının təkmilləşdirilməsindən səmərə əldə edəcəyi fikrindədir. Qanunvericilikdəki dəyişikliklərin onlara səmərə verəcəyini düşünən sahibkarlar əslində bu istiqamətdə aparılan işlərdə iştirak etməkdə maraqlı olmalı idi. Lakin, bunlardan yalnız ikisi digər sualda üzvlük prosesində iştirak etmək istədikləri istiqamət kimi məhz qanunvericiliyin yeniləşdirilməsi prosesinə cəlb olunmalarını göstərmişdir. Digər sahibkarlar isə bunun onlara hər hansı bir səmərə verməyəcəyini fikirləşirlər.

Diaqram 4.1-də sahibkarlar tərəfindən qeyd olunmuş cavablarda diqqəti cəlb edən məqamlardan biri onlardan 14-nün ÜTT-yə üzvlüyün yerli iş adamlarının daxili bazarda mövqelərinin möhkəmlənməsinə təsir edəcəyi variantını seçməsidir. Çünki, həmin sahibkarın heç biri bu cavabın əksi olan, yəni, rəqabətin artması nəticəsində yerli istehsalın tənəzzülə uğrayacağı variantını seçməmişdir. Məlum olduğu kimi, ÜTT-nin yerli istehsalçıların daxili bazarda mövqelərinin möhkəmlənməsi istiqamətində hər hansı bir dəstəkləyici addımları gözlənilmir. Düzdür, yerli sahibkarlar ÜTT-nin təmin etdiyi əlverişli biznes mühiti sayəsində indikindən daha çox uğur qazana biləcəklər. Lakin, bu heç də ÜTT-nin yerli sahibkarlara birbaşa yardım etməsi fikrinə gəlməyə əsas vermir. Buradan belə bir qənaətə gəlmək olar ki, yerli sahibkarlar Azərbaycanın ÜTT-yə üzvlüyü nəticəsində formalaşacaq azad rəqabət mühitinin prinsiplərini dərindən öyrənməsələr və bu istiqamətdə islahatlar aparmasalar, daha peşəkar olan və bazar iqtisadiyyatı sisteminin qaydalarını mənimsəmiş xarici iş adamları ilə rəqabətə tab gətirə bilməyəcəklər. Beləliklə, 14 sahibkar ÜTT-nin onlara gözlənilən təsirinin tam əksinin baş verəcəyi variantını seçməklə yanlış fikirdə olduqlarını göstərmişlər. Bu isə bir daha sahibkarlar arasında ÜTT və onun təsirləri haqqında geniş maarifləndirmə işlərinin aparılması zərurətini meydana çıxarır.

Sahibkarlardan heç birinin ÜTT-yə üzvlüyün rəqabəti artıracağı və bunun nəticəsində bazardan sıxışdırılacaqları variantlarını seçməməsi bu araşdırmada əvvəlcədən nəzərdə tutulan əsas parametrlərdən biri üzrə qiymətləndirmə aparmağa imkan verir. Belə ki, araşdırmada nəzərdə tutulan qiymətləndirmə parametrlərindən biri sahibkarların ÜTT-yə üzvlüyün daxili bazarda rəqabəti artıracağını nə dərəcədə dərk etmələri ilə bağlıdır. Çünki, sahibkarlar onları gözləyən rəqabət artımını dərk etməsələr, nə üzvlük prosesini yaxından izləməkdə maraqlı olacaqlar, nə də yeni rəqabət mühiti üçün hazırlıq görəcəklər. Təcrübə göstərir ki, bəzi dövlətlər ÜTT-yə üzvlük prosesi ilə bağlı yerli sahibkarların yetərincə məlumatlandırmamları səbəbindən üzündən onların bu quruma üzvlüyündən sonra milli istehsalçıların qorunması və bazarda mövqelərinin möhkəmləndirilməsi baxımından bir sıra problemləri yaranmışdır.

Bu işində güdülən məqsədlərdən biri də məhz Azərbaycanın özəl sektorunun ÜTT-yə üzvlüyünün onlar üçün mümkün mənfi təsiri və bunun kompensasiya edilməsi üçün onların görəcəkləri tədbirlərlə bağlı fikirlərini öyrənməkdir. Araşdırmadan əldə edilən nəticələrdən

göründüyü kimi yerli sahibkarlar ümumiyyətlə bu haqda heç fikirləşmir və hər hansı bir qabaqlayıcı tədbirlər də həyata keçirmirlər. Fikrimizcə, belə bir faktın olması ölkə iqtisadiyyatının, xüsusilə milli sahibkarlığın inkişafı baxımından gələcəkdə bir sıra problemlərin meydana çıxacağından xəbər verir. Buna görə də aidiyyəti dövlət orqanları, özəl sektorun təmsilçiləri və qeyri-hökumət təşkilatları bu məsələdə həmrəylik nümayiş etdirərək ÜTT-nin təsirləri haqında sahibkarların maarifləndirilməsi istiqamətində geniş təbliğat işləri aparmalı və biznes subyektlərini tədricən yeni mühitə hazırlamalıdırlar.

Diaqram 4.1-də sahibkarlardan 14-ü ÜTT-nin özəl sektora müsbət təsirlərindən biri kimi inhisarçılığın səviyyəsinin və korrupsiya hallarının azalması cavabını qeyd etmişdir. Buradan çıxan ilkin nəticə ondan ibarətdir ki, sahibkarlar öz fəaliyyətlərində inhisarçılıq və korrupsiya halları ilə qarşılaşırlar. Onlar ÜTT-yə üzvlüyü bu halların aradan qaldırılmasında bir vasitə kimi qiymətləndirirlər. Lakin, araşdırmaya əsasən sahibkarlarda bunun necə baş verəcəyi haqqında müfəssəl təsəvvür yoxdur. Bu baxımdan ÜTT-nin inhisarçılığın və korrupsiya hallarının azalmasına təsir imkanlarını burada şərh etməyi məqsədəuyğun bilərək aşağıda bu məsələyə aydınlıq gətirək

Belə ki, idxal zamanı gətirilən malların ölkəyə daxil olmasına bir sıra hallarda inhisarçılar tərəfindən müdaxilə olunursa, ÜTT-yə üzvlükdən sonra bu vəziyyətin müsbətə doğru dəyişməsi gözlənilir. Misal üçün qeyd edək ki, ÜTT-yə üzvlük zamanı, inhisarçıların idxalı məhdudlaşdırması halı baş verdikdə ölkəyə əmtəə gətirən xarici iş adamı mənsub olduğu ölkənin hökuməti vasitəsilə idxala süni əngəllərin yaradılması ilə bağlı Azərbaycan qarşısında məsələ qaldıra bilər. Həmin ölkənin Azərbaycanla apardığı ikitərəfli danışıqlar bir nəticə verməsə, onda ÜTT-nin mübahisələrin həlli mexanizmində bu məsələyə baxılacaq və beləliklə idxal olunan ölkə mövcud maneələri aradan qaldırmağa vadar ediləcək. Bunun nəticəsində idxalda bəzi hallarda mövcud olan bir sıra inhisarçılıq halları aradan qalxacaq. Digər tərəfdən, ÜTT-yə üzvlük prosesində xüsusi diqqətdə olan məsələlərdən biri də xarici hüquqi və fiziki şəxslərin “ticarət etmək hüququ”dur. Belə ki, bütün üzv ölkələr kimi Azərbaycan da qanunvericiliyində xarici hüquqi və fiziki şəxslərin sərhəddə və ölkə daxilində ticarət fəaliyyəti ilə məşğul olması ilə bağlı təsbit olunmuş hüquqları haqqında ÜTT-nin üzv ölkələrinə ətraflı məlumat verir və bu istiqamətdə danışıqlar aparır.

Bu səbəbdən də ÜTT–yə üzvlükdən sonra xarici iş adamlarının malik olduqları hüquqlara əsaslanaraq ticarət fəaliyyəti ilə məşğul olmalarına əngəllər yaranarsa, bunların aradan qaldırılması üçün də mübahisələrin həlli üzrə ÜTT-nin mexanizmlərindən istifadə olunacaq. Nəticədə, inhisarçıların bu istiqamətdə də fəaliyyətləri məhdudlaşdırılacaq. Korrupsiya hallarının aradan qaldırılmasına gəldikdə isə, ÜTT-nin ən vacib prinsiplərdən biri də şəffaflıqdır. Həmin prinsipin həyata keçirilməsi üçün bütün qanunvericilik aktlarında şəffaflığın təmin edilməsi ilə bağlı müvafiq müddəalar nəzərdə tutulur. Bu isə qanunvericilikdəki boşluqların aradan qaldırılmasına və korrupsiya hallarının azalmasına gətirib çıxaracaq.

Sorğuda əks olunan digər bir sual ÜTT-nin Azərbaycanın mövcud biznes mühitinə gözlənilən təsirləri məsələsidir. Diaqram 4.1-də ÜTT-yə üzvlüyün istehsalçılara birbaşa təsirləri əsas diqqət mərkəzində idisə, bu sualda əsas diqqət ÜTT-nin biznes mühitə təsirlərinə yönələcəkdir. Bu sualı qoymaqda məqsəd sahibkarların respublikamızın biznes mühitində baş verən dəyişiklikləri nə dərəcədə izlədiklərini öyrənmək və onların bu prosesləri nə şəkildə qiymətləndirdiklərini müəyyənləşdirməkdir. Bu baxımdan Diaqram 4.2-də Azərbaycanın ÜTT-yə üzvlüyünün biznes mühitinə təsirlərinə sahibkarların münasibəti qeyd olunub.




**Diaqram 4.2. Sahibkarların ÜTT-yə üzvlüyün biznes mühitə təsirinə münasibəti**

Göründüyü kimi sahibkarlardan 30-u biznesi tənzimləyən qanunvericilik bazasının təkmilləşəcəyi variantını seçmişdir. Sahibkarların bu məsələyə münasibətini artıq əvvəlki diaqramın (Diaqram 4.1.) şərhində əks etdirmişik. Sorğuda sahibkarlığa dövlət yardımının azalacağından yalnız doqquz sahibkar narahatçılığını ifadə etmişdir. Bu isə əslində ciddi bir məsələdir. Çünki, ÜTT prinsiplərində mühüm məsələlərdən biri də dövlət tərəfindən kənd təsərrüfatı və sənaye müəssisələrinə ayrılan yardımların məhdudlaşdırılması və ya ümumiyyətlə aradan qaldırılmasıdır. Görünür bu haqda yalnız sahibkarlardan 9-u məlumatlı olduğundan öz narahatçılıqlarını bildirmişdir. Lakin, bu sahibkarlardan heç biri digər variantda dövlətin üzvlükdən sonra görəcəyi tədbir kimi sahibkarlara subsidiyalar verilməsinin zəruriliyini göstərən variantı seçməmişdir.

Bu sualın cavablarında mühüm məqamlardan biri də sahibkarlardan 6-nın ÜTT-yə üzvlükdən sonra hər hansı dəyişiklik baş verməyəcəyi variantını seçməsidir. Maraqlı ondadır ki, belə cavab verən sahibkarların əksəriyyəti xidmət sektorunda fəaliyyət göstərir. Digər tərəfdən, bu variantı

seçən sahibkarların 5-i Diaqram 4.1-də səhv variant olan yerli istehsalçıların daxili bazarda mövqelərinin möhkəmlənməsi variantını seçmişdir.

Sahibkarların yalnız bir qismi ÜTT-yə üzvlükdən sonra daxili bazarda rəqabət mübarizəsinin güclənəcəyi fikrindədir. Ancaq, onlardan heç biri Diaqram 4.1-də şərh edildiyi kimi rəqabətin güclənməsinin yerli istehsalı tənəzzülə uğradacağı variantını seçməmişlər. Buradan belə bir nəticə çıxır ki, sahibkarlardan bir qismi ÜTT-yə üzvlüyün rəqabəti artıracağını, lakin bunun yerli istehsalı tənəzzülə uğradacaq səviyyədə olmayacağını fikirləşirlər. Yəni, onlar rəqabət artımının onlara ziyan vurmayacağı qənaətindədirlər və bundan narahat deyillər.

Sorğu blankındakı digər sualda sahibkarlar rəqabətin artacağı təqdirdə yerli iş adamlarının dəstəklənməsi üçün görülməsi zəruri olan tədbirlərlə bağlı öz mövqelərini bildirmişlər.




**Diaqram 4.3. ÜTT-yə üzvlükdən sonra yerli sahibkarların dəstəklənməsi tədbirləri**

Diaqramdan göründüyü kimi variantlardan bir neçəsi ÜTT-nin dəstəkləmədiyi və ya məhdudlaşdırdığı tədbirlərdir. Bu variantları qoymaqda məqsəd həm sahibkarların bu tədbirlərdən hansılarının onlar üçün daha çox əhəmiyyətli olmasını, həm də onların ÜTT qaydaları haqqında məlumatlılığını qiymətləndirməkdir. Göründüyü kimi üstünlük təşkil edən cavab yerli sahibkarlara dövlət tərəfindən subsidiyaların verilməsidir. Ümumiyyətlə yerli istehsala dövlət dəstəyinin göstərilməsi istehsalçıların rəqabətə tab gətirməsi məqsədilə həyata keçirilən tədbirlərindən biridir. Ancaq, bizim fikrimizcə yerli sahibkarlara "yaşıl zənbil[4]"ə düşən və onların bilik və bacarıqların artırılmasına yönəlmiş dolayı maliyyə yardımı göstərilməsi daha məqsədəuyğun olardı ki, bu da sahibkarlara mövcud resurslarından daha səmərəli istifadə etməkdə köməklik etmiş olar. Bu həm də

[4] ÜTT çərçivəsində "yaşıl zənbil"ə o növ subsidiyalar daxil edilir ki, onlar istehsala birbaşa dəstək göstərmək məqsədi daşımır və ticarətə təsir göstərmir. ÜTT bu cür subsidiyalardan istifadəyə məhdudiyyət qoymur.

sahibkarların təfəkkürlərinin dəyişərək dövlət himayəli iqtisadi sistemdən yüksək rəqabətli bazar sisteminə keçidin sürətləndirə bilər. Təcrübə göstərir ki, sahibkarlar dövlətin verdiyi subsidiyalardan təyinatı üzrə və səmərəli istifadə etmir və səriştəli rəqabət siyasəti həyata keçirmirlər. Beləliklə, sahibkarların subsidiya variantını seçməsi heç də onların həmin subsidiyalardan istifadə etməklə rəqabətə tab gətirəcəyinə əsas vermir. Qeyd edək ki, ÜTT yerli istehsalın inkişafına yönəldilmiş dövlətin maliyyə dəstəyinin məhdudlaşdırılmasını və bir sıra hallarda isə tamamilə aradan qaldırılmasını tələb edir. Ancaq, sahibkarların cavablarından aydın olduğu kimi onlar ÜTT-nin bu prinsipindən xəbərsiz olduqları və birbaşa maliyyə vəsaiti əldə etdikləri üçün dövlətin onlara ayırdığı yardımların artırılmasını təklif edirlər.

Diaqram 4.3-dən göründüyü kimi sahibkarlardan yalnız 9-u idxalda qeyri-tarif metodlarının tətbiq olunması yolu ilə yerli istehsalçıların maraqlarının qorunmasını təklif edirlər. Qeyri-tarif tədbirləri dedikdə bura idxal lisenziyalaşması, məhsula texniki tələblərin qoyulması, minimum idxal qiymətlərinin və kəmiyyət məhdudiyyətlərinin tətbiqi kimi məsələlər aid edilir. Qeyd edək ki, ÜTT idxalın tənzimlənməsində birmənalı şəkildə qeyri-tarif tədbirlərinin tətbiqinə qadağa qoyur və həmin tədbirlərin tarif ekvivalentinin tətbiqini məqbul hesab edir. Bu baxımdan, sahibkarların bu variantı seçməmələrini müsbət hal kimi qiymətləndirmək olar. Lakin, digər bir diqqəti çəkən məsələ, ÜTT-nin idxalın tənzimlənməsində və daxili bazarın qorunmasında məqbul hesab etdiyi əsas alətlərdən olan gömrük rüsum dərəcələrinin yüksəldilməsi variantının çox az sahibkar tərəfindən işarələnməsidir. Belə ki, ÜTT idxalın çoxalması və bu artımın daxili bazara zərər vurması halları müşahidə olunduqda, qoruyucu tədbir kimi idxalçı ölkələrə əvvəlcədən razılaşdırılmış bound tarif dərəcələrindən daha yüksək gömrük rüsumları tətbiq edilməsinə icazə verir. Həmçinin, idxal olunan məhsullar dempinqə məruz qalaraq maya dəyərindən ucuz qiymətə satılırsa və ucuz qiymətlərlə idxal müvafiq yerli məhsul istehsalçılarına zərər vurursa, bu halda idxalçı ölkə anti-dempinq tədbiri kimi bound tarif dərəcələri çərçivəsində tətbiq olunan rüsumları artıra və beləliklə məhsulun qiymətini yerli məhsulların qiyməti səviyyəsinə qaldıra bilər. Digər bir hal kimi isə idxal olunan məhsullar subsidiyalaşdırma nəticəsində ucuz qiymətə gətirilirsə, idxalçı ölkə kompensasiya tədbiri kimi yenə də idxal rüsumlarını qaldıra bilər. Lakin, dövlət bu tədbirlərin tətbiqini yalnız özəl sektorun idxalın kəskin artımının və ya ucuz məhsul idxalının yerli istehsala ziyan vurulmasını sübut edən vəsadəti əsasında tətbiq edə bilər. Deməli, sahibkarlar ÜTT-yə üzvlükdən sonra da bu məsələlərdə xüsusi fəallıq göstərməlidirlər.

Göründüyü kimi Diaqram 4.3-də sahibkarlar ÜTT-nin qoruyucu tədbirləri haqqında məlumatlarının az olması səbəbindən daha çox ÜTT-nin dəstəkləmədiyi variantları seçmişlər. Həmin variantlardan biri də idxala kəmiyyət məhdudiyyətlərinin – kvotaların qoyulmasıdır. Diaqram 4.3-də sahibkarlığa dövlət dəstəyindən sonra ən çox qeyd edilən cavab variantı kvotaların qoyulması yolu ilə idxalın məhdudlaşdırılmasıdır. Qeyd edək ki, ÜTT kvotaların tətbiqini də

birmənalı olaraq məhdudlaşdırır. Buna yalnız o halda icazə verir ki, idxalın həcmində baş verən kəskin artım daxili bazara zərər vursun. Lakin, burada məsələ məhz rəqabətin artacağı təqdirdə görülməsi zəruri olan tədbirlərdən gedir. Rəqabətin güclənməsi heç də yerli istehsalın tənəzzülə uğraması demək deyil. Yerli istehsalda digər amillərin təsiri nəticəsində də geriləmə ola bilər. Yəni, idxalın artımı və müvafiq yerli istehsal sahəsində baş verən geriləmə arasında qarşılıqlı əlaqə olduğu halda kvota tətbiq edilə bilər. Deməli, əgər yerli istehsalın zəifləməsi idxalın artımından deyil, digər daxili amillərdən qaynaqlanırsa onda, kvota tətbiq edilə bilməz. Odur ki, yerli sahibkarların uzun müddət qoruyucu tədbir kimi tanıdığı və bu səbəbdən də burada qeyd etdikləri kvota tətbiqi ÜTT tələblərinə ziddir.

Sorğu blankında ÜTT-nin təsirləri ilə bağlı qoyulan suallardan biri də üzvlüyün nəticəsində istehlak bazarında baş verəcək dəyişikliyə sahibkarların münasibətinin öyrənilməsi ilə bağlıdır. Çünki, istehlak bazarında dəyişikliklərin baş verməsi yerli sahibkarlara öz təsirini göstərəcəkdir. Lakin, ÜTT-nin istehlak bazarına bəzi təsirləri bir sahibkar kimi onlara sərf etməsə də, bir istehlakçı kimi onların da xeyrinədir. Qeyd edək ki, Azərbaycanın ÜTT-yə üzvlüyü nəticəsində istehlak bazarında baş verəcək dəyişikliklərə sahibkarların münasibətlərinin öyrənilməsi ÜTT haqqında onların təsəvvürlərinin kompleks şəkildə təhlil olunmasına köməklik göstərir. Sahibkarlar ÜTT-yə üzvlükdən sonra istehlak bazarında aşağıdakı dəyişikliklərin olacağını düşünürlər.




**Diaqram 4.4. ÜTT-yə üzvlüyün istehlak bazarına təsirlərinə sahibkarların münasibətləri**

Yuxarıdakı diaqramda göstərilən cavablar içərisində “əhalinin yerli məhsullara üstünlük verməsi” və “yerli məhsulların satış həcminin artması” kimi bəndlər yanlış variantlar kimi qoyulmuşdur. Lakin, sahibkarlardan ikisi məhsul təklif edən kimi maraqlarına xidmət etdiyinə görə əhalinin yerli məhsullara üstünlük verəcəyini qeyd edirlər. Bunun isə ÜTT üzvlüklə birbaşa əlaqəsi yoxudur. Çünki, əhalinin yerli mallara üstünlük verməsi istehlakçı mədəniyyəti və milli mentalitetlə bağlı olan məsələdir. Fikrimizcə, Azərbaycanın ÜTT-yə üzvlüyündən sonra əhali xaricdən gətirilən məhsullar ekoloji cəhətdən təmiz olmadığı halda daha etibarlı olan yerli məhsullara üstünlük verə bilər. Maraqlısı orasındadır ki, sahibkarların böyük bir qismi Azərbaycanın ÜTT-yə üzvlüyündən sonra yerli məhsulların satış həcminin artacağını fikirləşir. Lakin, yuxarıda da şərh etdiyimiz kimi rəqabətin artması, ucuz və keyfiyyətli xarici məhsulların idxalının çoxalması yerli məhsulların satışının azalmasına gətirib çıxarar. Yerli məhsulların satış həcminin artması variantını seçən sahibkarlardan bir qismi Diaqram 4.2-dəki Azərbaycan ÜTT-yə üzv olduğu təqdirdə rəqabətin artacağı variantını qeyd etmişdir. Bir qismi isə respublikamızın ÜTT-yə üzvlüyündən sonra daxili bazarda yerli istehsalçıların mövqelərinin möhkəmlənəcəyi kimi ziddiyyətli cavablar qeyd etmişlər. Buradan belə bir nəticə çıxır ki, sahibkarlardan bəziləri ölkəmizin ÜTT-yə üzvlüyünün rəqabətin artmasına gətirib çıxaracağı ilə yanaşı yerli istehsalın da inkişafına təkan verəcəyi qənaətindədirlər. Yuxarıda təhlil etdiyimiz məsələlərə sahibkarlar əsasən istehsalçı nöqteyi-nəzərindən yanaşdıqlarından onlar Azərbaycanın ÜTT-yə üzvlüyündən sonra daxili bazarda indikinə nisbətən daha ucuz və yüksək keyfiyyətli məhsulların artacağını bildirmişdilər. Bu rəydə olan sahibkarların ümumi sayı isə 34-dür ki, fikrimizcə də onlar haqlıdırlar. Əslində də elə doğru cavab bu idi. ÜTT-yə üzvlükdən sonra məhsulların qiymətlərinin aşağı düşməsi və keyfiyyətinin yüksəlməsi gözlənilən ən əsas nəticələrdəndir. Bu ucuzlaşma yalnız hazır məhsullar üçün deyil, həm də ölkəyə gətirilən xammal və avadanlığa da şamil edilə bilər. Xammal və avadanlığın ölkəyə ucuz gətirilməsi sahibkarların bir istehsalçı kimi səmərə əldə etməsi üçün bir fürsətdir. .

Ümumilikdə isə istehlak məhsullarının qiymətində baş verən enmələr sahibkarlara o qədər də əlverişli deyil və bu səbəbdən də az bir qisim sahibkar bu variantı seçmişdir. Ancaq, daha yaxşı olardı ki, sahibkarların hamısı bu variantı seçərək qiymətlərin ucuzlaşacağı təqdirdə hansı tədbirlər görəcəkləri haqqında fikirləşəydilər.

Bütün bunlarla yanaşı sahibkarlardan bir qismi Azərbaycan ÜTT-yə üzv olduqdan sonra daxili bazarda keyfiyyətsiz xarici məhsulların artacağı təhlükəsinin də gözlənildiyini önə çəkmişlər. Lakin, o da məlumdur ki, Azərbaycanın ÜTT-yə üzvlüyü nəticəsində rəqabətin artması və məhsulun təhlükəsizliyi ilə bağlı xüsusi tələblərin qoyulmasının nəticəsində keyfiyyətsiz məhsulların bazara yol tapmasının qarşısı alınacaqdır.

ÜTT-nin ölkə iqtisadiyyatına təsirlərinə sahibkarların sərbəst fikirlərini öyrənmək üçün sorğu blankında bir sual da variantlar olmadan qoyulmuşdur. Beləliklə, sahibkarlara ünvanlanan “*Sizcə*

*Azərbaycanın ÜTT-yə üzvlüyünün ölkə üçün faydaları çox ola bilər, yoxsa zərərləri ?* ” sualına sahibkarlar aşağıdakı kimi cavabları qeyd etmişdilər:

- ÜTT-yə daxil olmaq bizim üçün çətin olacaq;
- Azərbaycanın ÜTT-yə üzvlüyünün ölkə üçün faydaları çox ola bilər;
- istehsal olunan məhsullara məsuliyyət artacaq və hər cür keyfiyyətsiz məhsulların bazara çıxış imkanların qarşısı alınacaq;
- əgər ÜTT-yə üzvlük faydalı olmasa idi dünyanın 153 ölkəsi bu təşkilatın üzvü olmazdı;
- ÜTT-yə üzvlüyün Azərbaycana xeyirləri çox ola bilər, o cümlədən yerli sahibkarlar da bu faydalardan bəhrələnəcək;
- Azərbaycanın ÜTT-yə üzv olmasının mənfi tərəfi rəqabətin güclənməsi nəticəsində yerli istehsalçıların daxili bazardan sıxışdırılmasıdır, müsbət yönü isə yerli sahibkarlarımızın xarici dövlətlərin satış bazarlarına sərbəst çıxış imkanı əldə etməsidir;
- ÜTT –yə üzvlüyün səmərələri zərərlərindən daha çoxdur;
- ÜTT-yə üzvlüyün gömrük tariflərinin aşağı salınması və inhisarçılığın azalması baxımından səmərələri çox olacaq, lakin, bununla yanaşı daxili bazarda rəqabət də artacaq;
- ÜTT-nin səmərələri aparılan danışıqların səviyyəsindən asılı olacaq;
- idxal olunan məhsullar yerli bazarlarda da istehsal olunursa, onların rüsum dərəcələrinə xüsusi diqqət yetirildikdə səmərəli olacaq;
- respublikamızın ÜTT-yə üzvlüyü yerli sahibkarlar idxal olunan əmtəə və xidmətlərə qarşı özlərinin rəqabət qabiliyyətli məhsulları ilə cavab verərək yerli istehsalı qoruya bildikləri təqdirdə sərfəlidir;
- Azərbaycanın ÜTT-yə üzvlüyü nəticəsində rəqabətin artması keyfiyyətli məhsul istehsalını stimullaşdıracaq;
- qabaqcadan proqnoz vermək olmaz;
- ÜTT-nin səmərələri ilə yanaşı idxal və investisiya sahələrinə zərərləri də olacaq;
- faydaları çox ola bilər, gömrükdəki süründürməçiliklər və təzyiqlər azalar, malların qiyməti aşağı düşər;
- ÜTT-yə üzvlüklə bağlı yaradılan Komissiyanın səmərəli işindən asılı olaraq ölkəmiz üzv olduqdan sonra yüksək nailiyyətlər əldə edə bilər;
- ÜTT-yə üzvlük beynəlxalq standartlara uyğun məhsul istehsalına imkan verəcək, daxili bazarda məhsul bolluğu yaranacaq, qiymətlər aşağı düşəcək, inhisarçılıq aradan qalxacaq, investisiya mühiti yaxşılaşacaq;
- ÜTT-yə üzvlük idxal olunan malların ölkəyə gətirilməsi zamanı istər gömrük rüsumları, istərsə də vergilərlə bağlı sahibkarların qarşılaşdıqları problemlərin azalmasına səbəb olacaq ki, bu da biz sahibkarların xeyrinədir;

- ÜTT-nin səmərələri çox olacaq, çünki bazar iqtisadiyyatına keçid, sahibkarlığın inkişafı və sivil ölkələrlə əlaqələr yalnız bu quruma üzvlük çərçivəsində mümkündür.
- əgər qanunlardakı boşluqlar aradan qaldırılarsa, ÜTT-yə üzvlüyün səmərələri çox ola bilər;
- ÜTT-yə üzvlük qiymətlərin aşağı düşməsinə, inhisarçılığın və korrupsiya hallarının aradan qalxmasına səbəb olacaq;
- ÜTT-nin səmərələri o halda çox ola bilər ki, yerli istehsal inkişaf etdirilsin;
- bu təşkilata üzvlük ölkə iqtisadiyyatına investisiya yatırılmasının böyük artımına, eləcədə iqtisadi islahatların sürətləndirilməsinə səbəb olacaq;
- ÜTT-yə üzv olanadək yerli sahibkarların inkişafına xüsusi qayğı olmasa və sahibkarların problemləri aradan qaldırılmasa üzvlük zərərli olacaq;

Sahibkarların Azərbaycanın üzvlük prosesinə dair verdikləri əlavə təkliflər ayrıca sənəd kimi hazırlandığından onların burada geniş şərhini vermirik.

## 5. Azərbaycanın ÜTT-yə üzvlüyü prosesinə sahibkarların cəlb olunması problemləri və onların həlli yolları

### 5.1. Sahibkarların üzvlük prosesində iştirak etməyə maraqları

Sahibkarlar ÜTT haqqında nə qədər çox məlumata malik olsalar üzvlük prosesinə də bir o qədər diqqətlə yanaşar və bu prosesdə iştirak etməkdə maraqlı olarlar. Əvvəlki bölmədən göründüyü kimi sahibkarların əksəriyyətində ÜTT və onun iqtisadiyyata mümkün təsirləri haqqında hələ düzgün təsəvvür formalaşmayıb. Məhz onlar da mövcud biliklərinə əsaslanaraq üzvlük prosesinə münasibət bildiriblər. Odur ki, bu bölmədə sahibkarların üzvlük prosesinə cəlb olunması imkanları və dövlətlə əməkdaşlığın mümkün istiqamətləri barədə söhbət açılacaq.

Sahibkarlar Azərbaycanın ÜTT-yə üzvlük prosesində özlərinin rolunu aşağıdakı kimi görürlər.




**Diaqram 5.1. Sahibkarların ÜTT-yə üzvlük prosesində özlərinin iştirakına münasibətləri**

Diaqram 5.1-dən göründüyü kimi sahibkarların əksəriyyəti üzvlük prosesində məhz özlərinin təşəbbüskarlığı əsasında iştirak etmələrini qeyd ediblər. Bu, sorğunun təhlili zamanı əvvəlcədən müəyyənləşdirilən əsas parametrlərdən biri üzrə müsbət nəticənin ortaya çıxması deməkdir. Lakin, fərqli regionlarda aparılan sorğu iştirakçılarının 50 %-dən çoxunun üzvlük prosesində iştirak etməkdə maraqlı olmasına baxmayaraq, onların bu prosesə cəlbi aşağı səviyyədədir. Sorğunun gedişi zamanı sahibkarlarla aparılan söhbətlərdə onlar bu prosesdə iştirak etməmələrinin səbəbi kimi aşağıdakıları qeyd etmişdilər:

- verilən təkliflərin aidiyyəti dövlət qurumları tərəfindən nəzərə alınacağına inamın olmaması;
- dövlət orqanlarının sahibkarlarla bu məsələdə əməkdaşlığa maraq göstərməməsi;
- Azərbaycanın ÜTT-yə üzvlüyü prosesin sahibkarların cəlb olunmasının mexanizmlərinin olmaması;
- təkliflərin verilməsi üçün vahid orqanın yaradılmaması;
- təkliflərin hazırlanması üçün zəruri informasiyalara çıxışın təmin edilməməsi;
- sahibkarların üzvlüyün məsuliyyətini yetərincə anlamaması və buna biganəlik göstərməsi;
- sahibkarların üzvlük prosesində iştirak etməyə təşviq edilməməyi və bundan səmərə əldə edəcəyinə inamın olmaması.

Sahibkarların üstünlük verdiyi digər bir variant isə göründüyü kimi dövlət orqanlarının onlarla əməkdaşlıq etməməsidir. Ən çox seçilən bu iki variant isə məntiqi baxımdan bir birini tamamlayır.

Belə ki, əgər, sahibkarların Azərbaycanın ÜTT-yə üzvlüyü prosesində iştirak etmək maraqları olmasa onda, aidiyyəti dövlət orqanlarının onlarla əməkdaşlığa yönəldilmiş işlərinin səmərəsi olmayacaq. Əksinə olaraq da sahibkarlar sözügedən məsələlərin gedişatında iştirak etmək istəsələr lakin dövlət orqanları əməkdaşlıqda maraqlı olmasalar yenə də heç bir nəticə əldə olunmayacaq.

Bütün bunları nəzərə alaraq sahibkarların ÜTT-yə üzvlüyü prosesində iştirakını təmin etmək məqsədilə aşağıdakı tədbirlərin görülməsini məqsədəuyğun hesab edirik:

1. Sahibkarların ölkəmizin ÜTT-yə üzvlük prosesi haqqında məlumat əldə etməsi və təkliflər göndərməsi imkanlarının genişləndirilməsi məqsədilə İqtisadi İnkişaf Nazirliyinin tərkibində əlaqələndirici komissiyanın yaradılması. Bu komissiya həm sahibkarlara üzvlük prosesi haqqında zəruri olan məlumatları verə, həm də onlardan təklifləri toplaya bilər. Lakin, məlum olduğu kimi əmtəə və xidmətlər üzrə ikitərəfli danışıqlar qapalı aparıldığından bound tarif dərəcələri və xidmətlər üzrə müzakirə olunan öhdəliklər ictimaiyyətə açıqlanmır. Sahibkarların bu prosesdə iştirakını təmin etmək üçün ilkin olaraq onlara istehsal və ya istifadə etdiyi məhsulların tətbiq olunan tarif dərəcələri verilə bilər. Sahibkarlar isə həmin məhsulların tətbiq olunan dərəcələrini nəzərdən keçirməklə həmin məhsulların özlərinin məqbul hesab etdikləri bound[5] tarif dərəcələrini təklif edə bilərlər. Bununla belə xidmətlər üzrə danışıqlarda tələb olunan öhdəliklərin və güzəştlərin müəyyən məqamları da iş adamlarına açıqlana bilər. Bundan istifadə edərək də sahibkarlar həmin məsələlər barəsində öz fikir və təkliflərini müvafiq dövlət orqanlarına çatdırarlar.
2. Sahibkarların verdikləri təkliflərdən hansıların qəbul edildiyi haqqında isə onlara məlumat verilməsi və beləliklə də sahibkarlarda təklif verilməsinə sərf etdikləri vaxtın hədərə getmədiyi təəssüratının yaradılması.
3. Sahibkarlara Azərbaycanın ÜTT-yə üzvlüyünün onlara təsirləri və bu prosesə cəlbi imkanları haqqında aidiyyəti dövlət orqanlarının iştirakı ilə silsiləvi seminarların, dəyirmi masaların keçirilməsi. Bu seminarlarda digər ölkələrin üzvlük prosesində sahibkarların iştirakı və rolunu əks etdirən təcrübələrin də aşılanması da nəzərdə tutulur.
4. Müxtəlif sahələrdə fəaliyyət göstərən aparıcı sahibkarlarla fərdi iş apararaq onların yeni biznes mühitə hazırlığının və üzvlük prosesində iştirakının təmin olunması. Bunun üçün sahibkarlara onların fəaliyyətlərinin xüsusiyyətinə uyğun olaraq Azərbaycanın ÜTT-yə üzvlüyü nəticəsində respublikamızın iqtisadi həyatında baş verəcək dəyişikliklər haqqında

[5] Bound tarif dərəcələri dedikdə ikitərəfli danışıqlarda müəyyənləşdirilən tariflərin tətbiq oluna bilən ən yüksək hədləri nəzərdə tutulur. Yəni, danışıqlar tətbiq olunan dərəcələr üzrə deyil, tətbiqi mümkün ola bilən ən yüksək hədlər üzrə aparılır. Bu o deməkdir ki, üzv olduqdan sonra idxalçı ölkə həmin hədlərdən yuxarı tariflər tətbiq edə bilməz. Bound tarif dərəcələr danışıq aparan ölkə üçün məhsulların əhəmiyyətli və əhəmiyyətsiz olmasından asılı olaraq tətbiq olunan tariflərdən yüksək, ona bərabər və ya aşağı ola bilər. Üzv olan ölkə bound tarif dərəcələri çərçivəsində istədiyi tarifləri tətbiq edə bilər.

məlumat verilməsi və formalaşacaq yeni işgüzar mühit üçün biznes strategiyalarının hazırlanması istiqamətində məsləhətlərin verilməsi.

5. Mütəmadi olaraq Azərbaycanın ÜTT-yə üzvlüyü prosesində meydana çıxan yeni məsələlər və öhdəliklər üzrə sahibkarların iştirakı ilə debatların təşkil olunması.
6. Televiziya kanallarından birində üzvlük prosesi haqqında vaxtaşırı məlumat verən xüsusi proqramın təşkil edilməsi.
7. Sahibkarların ÜTT-yə üzvlüyünün onlara aid məsələləri barəsində istədikləri informasiyaya çıxış əldə etmələri üçün internet portalın formalaşdırılması.
8. Dövlət tərəfindən üzvlük prosesində fəal iştirak edən sahibkarların mükafatlandırılması və onların fəaliyyətinə dəstək göstərilməsi
9. Regionlarda sahibkarların "ÜTT-yə üzvlük prosesində iştirakına dəstək" assosiasiyalarının yaradılması və onların fəaliyyətinin bir mərkəzdən koordinasiya edilməsi və s.

## 5.2. Sahibkarların ÜTT-yə üzvlük prosesinin müxtəlif istiqamətlərində iştirak imkanları

Aşağıdakı diaqram sahibkarların Azərbaycanın ÜTT-yə üzvlüyü prosesinin hansı istiqamətləri üzrə iştirak etmək maraqlarının olduğunu xarakterizə edir.




**Diaqram 5.2. Sahibkarların ÜTT-yə üzvlük prosesində maraqlı olduğu istiqamətlər**

Sahibkarların Azərbaycanın ÜTT-yə üzvlüyü prosesində iştirakı imkanlarını aydınlaşdırmaq üçün diaqram 5.2-nin hər bir variantını ayrılıqda şərh edək.

### *5.2.1. Tariflər üzrə ikitərəfli danışıqlar*

Verilən cavablardan aydın olur ki, sahibkarların ən çox maraqlı olduğu sahə tariflər üzrə aparılan ikitərəfli danışıqlardır. Hazırda Azərbaycan Türkiyə, Oman, Səudiyyə Ərəbistanı ilə danışıqları tamamlamış və ikitərəfli protokol imzalanmışdır. Gürcüstan, Qırğızıstan və Moldova kimi dövlətlərlə isə ikitərəfli danışıqlar başa çatmış və yaxın günlərdə onlarla da protokolların imzalanacağı gözlənilir. ABŞ, Avropa Birliyi, Kanada, Yaponiya, Cənubi Koreya, Belçika, Çinin Tayvan əyaləti kimi ölkələrlə danışıqlar hələ də davam edir. Deməli, sahibkarların sonuncu ölkələrlə aparılan ikitərəfli danışıqlarda iştirak etmək imkanları qalmaqdadır. Qeyd edək ki, sahibkarlar bu danışıqlarda yeni bound tarif dərəcələri təklif etmək imkanlarını itirsələr də dövlətin təklif etdiyi bound tarif dərəcələri və onlardan aşağı hədlər üzrə öz tövsiyələrini hələ də verə bilərlər. Çünki, Azərbaycanın danışıq apardığı ölkələrə təklif etdiyi bound hədlərini yuxarı qaldırmaq mümkün deyil. Ona görə də, sahibkarlar Hökumətin üzvlərə təklif etdiyi bound hədlər daxilində danışıqlarda edilə biləcək güzəştin son həddi üzrə təkliflər verə bilərlər.

Qeyd edək ki, sahibkarlar tariflər üzrə ikitərəfli danışıqlarda təkliflər verərkən bir neçə meyarı əsas götürəcəklər. Belə ki, sahibkarlar istehsal etdikləri məhsullar və ya ona oxşar əmtəələrin idxal rüsumlarının yuxarı qaldırılmasını istəyəcəklər, Çünki, bununla onlar daxili bazara xaricdən eyni məhsulların axınının qarşısını almağa nail olacaqlar ki, nəticədə özlərinin istehsal etdikləri əmtəələrinin satışı üçün əlverişli imkan əldə edəcəklər. Bundan fərqi olaraq istehsal prosesində istifadə etdikləri xaricdən gətirilən xammal və avadanlığın idxal rüsumlarının isə əksinə aşağı olmasına maraq göstərəcəklər. Belə ki, bu onlara istehsal xərclərinə qənaət etmək imkanı verir. Lakin bu prinsip daha çox istehsal müəssisələri üçün məqbuldur._Digər tərəfdən, bir müəssisəsinin istehsalda istifadə etdiyi məhsul və avadanlıqlar digər müəssisələrin son məhsullarıdır və bu halda onlar əvvəlkilərdən fərqli olaraq həmin məhsulların idxal rüsum dərəcələrinin yuxarı olmasını istəyəcəklər. Xidmət müəssisələri isə xidmət göstərilməsində istifadə etdikləri məhsul və avadanlıqların aşağı düşməsini, ticarətlə məşğul olan müəssisələr isə bütün məhsul və avadanlıqların qiymətinin aşağı düşməsinin tərəfdarı olacaq. Odur ki, konkret xammal və avadanlıq üzrə təklif verilərkən həmin xammal və avadanlıqda maraqlı olan bütün müəssisələrin maraqları balanslaşdırılmalıdır. Bu məsələyə ümumi münasibəti öyrənmək üçün sahibkarlara verilən-"*Siz istehsal etdiyiniz məhsullarla eyni və oxşar olan məhsulların idxal gömrük rüsumlarının necə dəyişməsini istəyirsiniz"* sualına onların cavabı aşağıdakı kimi olmuşdur.




**Diaqram 5.3. Danışıqlarda gömrük tariflərində hansı dəyişikliklərin edilməsinə sahibkarların münasibəti**

Verilmiş cavablardan bəlli olur ki, sahibkarların böyük əksəriyyəti idxal gömrük rüsumlarının aşağı salınmasının tərəfdarıdır. Bu isə yuxarıda qeyd etdiyimiz məsələlərlə ziddiyyət təşkil edir. Yəni, əslində onlar istehsal etdikləri məhsullarla təyinatı eyni olan məhsulların rüsum dərəcələrinin yüksəldilməsini və ya indiki kimi qalmasını istəməli idilər. Onların bu varianta üstünlük vermələri ya onların sualın mahiyyətini başa düşməməklərindən, ya da mövcud tarif dərəcələrinin həddindən artıq yüksək olması fikrində olmalarından irəli gəlir. Qeyd edək ki, İqtisadi İnkişaf Nazirliyinin apardığı sorğunun nəticəsinə əsasən də respondentlərin 80 %-dən çoxu tariflərin liberallaşdırılmasının tərəfdarı olmuşdur. Lakin, burada respondentlər yalnız sahibkarlar deyil, istehlakçılar da olmuşdur və sualda ümumilikdə tarif dərəcələrinin endirilməsindən söhbət gedirdi. Beləliklə, sahibkarların əksəriyyətinin onların istehsal etdikləri məhsullara oxşar əmtəələrin idxal gömrük rüsumlarının aşağı endirilməsini dəstəkləməsi məsələ haqqında ciddi fikirləşməyə əsas verir. Əgər, bu fikirdə olan sahibkarlar Azərbaycanın ÜTT-yə üzvlüyü prosesində iştirak etsələr, onda onlar dövlətin təklif etdiyi bound tarif dərəcələrini dəstəkləmək əvəzinə onların aşağı salınmasını istəyəcəklər. Çünki, mallar üzrə ikitərəfli danışıqlarda iştirak etmək istəyini bildirən 32 sahibkardan 16-sı tariflərin aşağı endirilməsini qeyd etmişdir. Qeyd edək ki, bunlardan yalnız 8-i istehsal müəssisəsidir. Odur ki, Azərbaycanın 6 regionunda sahibkarların çoxluqla bu variantı dəstəkləməsinin səbəbləri ayrıca tədqiq olunmalıdır. Fikrimizcə, sahibkarların bu şəkildəki düşünmələrinin səbəblərindən biri kimi onların bir çoxunun xaricdən məhsulları Azərbaycana idxal etməklə məşğul olmaları ilə əlaqələndirmək olar. İdxal zamanı isə onlar həm tariflərin yuxarı olması, həm də subyektiv amillərlə qarşılaşırlar ki, bu səbəbdən də rüsumların aşağı salınmasını istəyirlər.

Sahibkarlardan yalnız 18-i gömrük tariflərinin yüksəldilməsinin tərəfdarıdır. Bunlardan isə 9-u istehsal fəaliyyəti ilə məşğul olurlar. 9 müəssisənin bu variantı seçməsi yuxarıda qeyd etdiyimiz prinsipə tam uyğundur. Lakin, digər 9 müəssisənin (əsasən xidmət müəssisələrinin) bu varianta üstünlük verməsi yenə də o qədər aydın deyil. Göründüyü kimi gömrük tariflərinin dəyişməz qalmasını isə cəmi 4 sahibkar dəstəkləyir. Bu isə o deməkdir ki, sahibkarların böyük əksəriyyəti tariflərin aşağı salınıb və ya yuxarı qaldırılmasını istəməklə ümumilikdə tarif dərəcələrinə yenidən baxılmasının tərəfdarıdırlar.

Sahibkarlar Azərbaycanın ÜTT-yə üzvlüyü prosesinin tərkib hissəsi kimi gömrük sahəsində yalnız rüsumların dəyişdirilməsini deyil, həmçinin digər islahatların həyata keçirilməsini də məqsədəuyğun hesab edirlər. Belə ki, onlar gömrük sahəsində aşağıdakı islahatların aparılmasını təklif edirlər.




**Diaqram 5.4. Sahibkarların gömrük sahəsində zərurət hesab etdikləri islahatlar**

Gömrük idxal rüsumlarının endirilməsini istəyən sahibkarlar əsasən əvvəlki variantlarda da rüsumların endirilməsini təklif edənlərdir. Lakin, Diaqram 5.3-də göründüyü kimi 34 sahibkar rüsumların endirilməsini istəyirdisə, burada yalnız onlardan 22-si bunu tələb edir. Səbəb isə respondentlərin sualda qoyulmuş digər variantlara bu variantla müqayisədə daha çox əhəmiyyət verməsidir. Göründüyü kimi sahibkarların böyük bir qismi gömrük məntəqələrində şəffaflığın təmin olunmasını və korrupsiya hallarının aradan qaldırılması variantını qeyd etmişdir. Bu sahibkarların 29-u istehsal müəssisəsi olmaqla yanaşı qismən də olsa məhsul və ya xammal idxal-ixracı ilə

məşğul olanlardır. Digər bir sualda isə respondentlərin 22-i məhsul ixrac etməməklərinin səbəbini gömrük məntəqələrində bir sıra çətinliklərin və süni əngəllərin olması ilə əlaqələndirmişlər. Odur ki, sahibkarların bu probleminin aradan qaldırılmasına ciddi yanaşılmalıdır. Qeyd edək ki, respublikamızın ÜTT-yə üzvlüyü gömrük sahəsində şəffaflığın təmin olunmasına və korrupsiya hallarının azalmasına gətirib çıxaracaq. Çünki qanunvericiliyin hazırlanması və onun icra prosesində şəffaflığın təmin edilməsində ÜTT bir sıra qaydalar müəyyənləşdirmişdir. Lakin buna baxmayaraq şəffaflığın təmin olunması ÜTT-nin tam həll edə biləcəyi məsələ deyil.

Sahibkarları narahat edən digər bir məsələ isə idxal-ixrac əməliyyatları üçün tələb olunan sənədlərin sayının çox olmasıdır. Ona görə də 26 sahibkar tələb olunan sənədlərin sayının azaldılmasını təklif etmişdilər. Ümumiyyətlə, sahibkarların gömrük prosedurların keçən zaman tələb olunan sənədlərin çoxluğu ilə bağlı narahatçılığını haqlı hesab etmək olar. Bunun üçün əvvəlcə Azərbaycanda idxal-ixrac əməliyyatları üçün hal-hazırda tələb olunan sənədlərə qısaca nəzər salaq. *"Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında"* Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli, 609 nömrəli Fərmanına əsasən hazırda idxal-ixrac əməliyyatları üçün aşağıdakı sənədlər tələb olunur:

1. İdxal əməliyyatları üzrə:
   - bağlanmış müqavilə;
   - gömrük yük bəyannaməsi;
   - invoys — idxal olunan malların əmtəə dəyərini müəyyən edən sənəd;
   - yol-nəqliyyat sənədləri;
   - malın mənşəyini təsdiq edən sənəd;
   - malın keyfiyyət sertifikatı;
   - malın uyğunluq sertifikatı;
   - Nazirlər Kabinetinin sərəncamı və ya İqtisadi İnkişaf Nazirliyinin ekspertizasının müsbət rəyi.
2. İxrac əməliyyatları üzrə:
   - hüquqi şəxsin Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilmiş kodu;
   - xarici şəxslərlə bağlanmış müqavilə;
   - ixrac olunan malların mənşəyi haqqında sənədlər;
   - ixrac olunan malların haqqının qabaqcadan ödənilməsi və ya akkreditiv açılması barədə müvəkkil bankın sənədi;
   - Nazirlər Kabinetinin sərəncamı və ya İqtisadi İnkişaf Nazirliyinin müsbət rəyi (xüsusi məhsullar üçün);
   - gömrük yük bəyannaməsi;

– Azərbaycan Respublikasından Avropa İttifaqı ölkələrinə ixrac edilən balıq və digər dəniz məhsullarına keyfiyyət sertifikatı.

İqtisadi İnkişaf Nazirliyinin ÜTT-nin tələblərinə uyğunluğu təmin etmək üçün yuxarıda adı çəkilən 609 saylı Fərmana hazırladığı layihə dəyişikliklərdə idxal üçün tələb olunan sənədlərdən biri – malın keyfiyyət sertifikatı ləğv edilməsi planlaşdırılır. Lakin, ixrac üçün tələb olunan sənədlərin sayında hər hansı bir dəyişikliyin edilməsi gözlənilmir. Dünyanın əksər ölkəsində idxal üçün aşağıdakı sənədlər tələb olunur:

1. Gömrük yük bəyannaməsi.
2. Bağlanmış müqavilə.
3. İnvoys.
4. Yol-nəqliyyat sənədləri.
5. Malın mənşə ölkəsini təsdiq edən sənəd (yalnız preferensial rejimdə idxal olunan məhsullar üçün).
6. Uyğunluq sertifikatı (yalnız təhlükəsizlik tələblərinə cavab verməli olan məcburi sertifikatlaşdırılan məhsullar).

Bəzi ölkələr məhsulların insan, heyvan və bitkilərin sağlamlığına mənfi təsirinin qarşısını almaq məqsədilə yeyinti məhsulları üçün sanitar, bitki və bitki mənşəli məhsullar üçün fitosanitar, heyvan və heyvan mənşəli məhsullar üçün isə baytarlıq sertifikatlarının olması tələbini də irəli sürürlər. Digər sənədlərin tələb olunması isə beynəlxalq aləmdə əhəmiyyətsiz hesab edilir. Fikrimizcə, ixrac üçün isə yuxarıda tələb olunan sənədlərdən "ixrac olunan malların haqqının qabaqcadan ödənilməsi və ya akkreditiv açılması barədə müvəkkil bankın sənədi" və "Azərbaycan Respublikasından Avropa İttifaqı ölkələrinə ixrac edilən balıq və digər dəniz məhsullarına keyfiyyət sertifikatı" (o halda ki, uyğunluq sertifikatı da tələb olunur) ləğv edilə bilər.

Sahibkarların islahatların aparılmasında maraqlı olduqları istiqamətlərdən biri də gömrük orqanlarında çalışan mütəxəssislərin peşəkarlığının artırılmasıdır. Sahibkarlarla keçirilən görüşlərdə də onlar gömrük əməkdaşlarının onlarla yaxşı rəftar etməməyindən, həmin işçilərin gömrük qanunvericiliyini təfsilatlı bilməmələrindən və gömrük rüsumlarını düzgün təyin etməməklərindən şikayətlənirdilər.

### *5.2.2. Qanunvericilik bazasının təkmilləşdirilməsi*

Sahibkarların üzvlük prosesində iştirak etmək istədiyi ikinci mühüm sahə mövcud qanunvericiliyin təkmilləşdirilməsidir. Yeri gəlmişkən qeyd edək ki, hal-hazırda Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 1583 saylı Sərəncamına əsasən 40-a yaxın qanunvericilik

aktlarının ÜTT-nin sazişlərinin tələblərinə uyğunlaşdırılması və ya yenilərinin hazırlanması istiqamətində iş aparılır. Sərəncamdan irəli gələn bütün əsas normativ hüquqi sənədlər hazırlanaraq Nazirlər Kabinetinə göndərilmişdir. Artıq Azərbaycan Respublikasının 4 Qanununa, Nazirlər Kabinetinin isə 4 Qərarına dəyişikliklər qəbul olunub. 2008-ci ilin sonunadək sərəncamda göstərilmiş bütün qanunvericilik aktlarının qəbul edilməsi planlaşdırılır. Ümumiyyətlə, qanunvericiliyin təkmilləşdirilməsi dedikdə mövcud normativ hüquqi aktların ÜTT-nin müvafiq sazişlərinin tələblərinə uyğunlaşdırılması məqsədilə onlara əlavə və dəyişikliklərin edilməsi və ya yenilərinin hazırlanmasıdır. Göründüyü kimi ikitərəfli danışıqlardan fərqli olaraq burada əsas məsələ özəl sektorun rəyi deyil, ÜTT-nin sazişlərində əks edilmiş müddəaların milli qanunvericilikdə təsbit edilməsidir. Ona görə də sahibkarların bu prosesdə iştirakı əvvəlkindən fərqlənir. Qeyd edək ki, ÜTT sazişlərindəki müddəaların milli qanunvericilikdə təsbit olunması mövcud qanunvericilik bazasında bir sıra dəyişikliklərin edilməsini tələb edir. Bütün bu dəyişiklər isə son nəticədə sahibkarların fəaliyyətinə təsir göstərdiyindən onların bu məsələlərdə yaxından iştirak edərək öz fikir və rəylərini bildirmələri vacibdir. Ona görə də sahibkarlar aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əməkdaşlıq şəraitində qanunvericiliyin yeniləşdirilməsi prosesində iştirak etməlidir.

Sahibkarlar ümumi olaraq Diaqram 5.5-də əks olunan sahələrə aid qanunvericilik aktlarında boşluqların olduğunu və ÜTT-yə üzvlük prosesinin tərkib hissəsi kimi onların təkmilləşdirilməsini qeyd etmişlər.




**Diaqram 5.5. Sahibkarların təkmilləşdirilməsin istədikləri qanunvericilik sahələri**

Diaqram 5.5-dən göründüyü kimi sahibkarlardan 25-i gömrük qanunvericililiyində boşluğun olduğu qənaətindədirlər. Gömrük sahəsində islahatların aparılması ilə bağlı olan Diaqram 5.4-də

sahibkarlardan 16-sı məhz qanunvericiliyi qeyd etmişdir. Sahibkarlar bunu gömrük əməkdaşlarının qanunlardakı boşluqlardan istifadə edərək onlara süni əngəllər yaratması, qanunvericiliyin onlar üçün çətin başa düşülən olması, eyni bir məsələni bir neçə normativ hüquqi aktlarla tənzimlənməsi və s. bu kimi məsələlərlə əsaslandırırlar. Lakin, onu da nəzərə çatdıraq ki, Azərbaycanın gömrük qanunvericiliyi ÜTT-nin tələblərinə uyğunluğu təmin etmək üçün edilən yeni əlavə və düzəlişlərlə birlikdə artıq ÜTT-nin və əksər beynəlxalq sazişlərin tələblərinə tam uyğunlaşdırılmışdır. Artıq Gömrük Məcəlləsinin yeni variantının layihəsi hazırlanıb ki, bunu da MDB məkanında ən təkmil Məcəllə kimi qiymətləndirmək olar. Burada əsas problemlər bir məsələnin bir neçə normativ hüquqi aktlarla tənzimlənməsi, sahibkarların həmin hüquqi sənədləri çətinliklə əldə etməsi, onların bu hüquqi sənədlər haqqında məlumatlarının az olması və bəzən gömrük əməkdaşlarının sahibkarların məlumatsızlığından istifadə edərək onların qanuni hüquqlarını təmin etməməsidir.

Digər sahələrdəki qanunvericiliyin təkmilləşdirilməsinə gəldikdə isə sahibkarları ikinci narahat edən sahə qeydiyyat və lisenziya ilə bağlı normativ hüquqi sənədlərdir. Qeyd edək ki, qeydiyyatla bağlı "vahid pəncərə" sisteminin tətbiqi və digər qanunvericilik bazasının buna uyğunlaşdırılması bu sahədəki hüquqi bazanı xeyli təkmilləşdirmişdir. Lisenziya ilə bağlı hüquqi bazaya gəldikdə isə bununla bağlı hələ də vahid tənzimləyici mexanizm formalaşdırılmayıb. Ancaq, problemin aradan qaldırılması və ÜTT-nin İdxal Lisenziyalaşdırılması Sazişinin tələblərinin yerinə yetirilməsi üçün artıq *"Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında"* Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli, 782 nömrəli Fərmanına yeni dəyişikliklərin layihəsi hazırlanıb. Eləcədə, İqtisadi İnkişaf Nazirliyi tərəfindən lisenziya sistemin tənzimləyəcək "Lisenziyalaşdırma fəaliyyəti" haqqında yeni qanun hazırlanması da planlaşdırılır. Vergi sahəsindəki qanunvericilikdə isə islahatların aparılmasına baxmayaraq sahibkarlar hələ də bir sıra məsələlərlə razı deyillər. Bu məsələlər içərisində vergi yükünün ağır olması üstünlük təşkil edir.

Qeyd edək ki, Azərbaycanın Standartlaşdırma sistemini tənzimləyən hüquqi sənədlərdə də bir sıra boşluqlar və çatışmazlıqlar mövcuddur. Bu sistemin inkişaf etdirilməsi və ÜTT-nin tələblərinə uyğunlaşdırılması məqsədilə artıq "Texniki tənzimləmə" haqqında qanun layihəsi hazırlanaraq Nazirlər Kabinetinə göndərilmişdir. Rəqabət sahəsindəki qanunvericiliyin təkmilləşdirilməsinə gəldikdə isə yeni "Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi" hazırlanmış və artıq Milli Məclisdə iki oxunuşdan keçmişdir. Bütün bunlarla yanaşı "İnvestisiya fəaliyyəti" haqqında qanun layihəsi də hazırlanaraq müzakirə üçün aidiyyəti dövlət orqanlarına göndərilmişdir.

### *5.2.3. Xidmətlər üzrə ikitərəfli danışıqlar*

Xidmətlər üzrə ikitərəfli danışıqlara gəldikdə isə bu prosesdə sahibkarların az bir qismi iştirak etməkdə maraqlıdır. Bunlar əsasən xidmət sahəsində fəaliyyət göstərən sahibkarlardır. Qeyd edək ki, Azərbaycan yuxarıda sadalanan dövlətlərlə mallar üzrə ikitərəfli danışıqlar aparmaqla yanaşı xidmətlər üzrə də danışıqlar həyata keçirilir. Lakin, hələlik heç bir ölkə ilə sonuncu məsələ ilə bağlı ikitərəfli protokol imzalanmayıb. Bu isə sahibkarlara danışıqlarda iştirak etmək imkanı verir. Ümumiyyətlə, xidmətlər üzrə aparılan ikitərəfli danışıqlar digərlərindən fərqləndiyinə görə sahibkarların bu sahədə iştirakının forma və üsulları da fərqli olacaqdır. Ona görə də bu hissədə xidmətlər üzrə danışıqlar və sahibkarların bu danışıqlarda iştirak imkanları barədə qısaca məlumat verməyi məqsədəuyğun hesab etdik. Xidmətlər üzrə aparılan danışıqlar əsasən ümumi (horizontal) və konkret xidmət sahələri (spesifik) üzrə aparılır. Burada əsas məsələ danışıq aparılan xidmət sahələrində fəaliyyət göstərmək üçün ÜTT-nin bütün üzv ölkələrinin yerli və xarici iş adamlarına "Milli Rejim" və "Ən Əlverişli Ölkə Rejim" üzrə eyni şərait yaradılmasıdır. Bərabər hüquqlu şəraitin yaradılması dedikdə xidmət sahəsinə aid olan məsələlərdə yerli iş adamlarına yaradılan əlverişli rejimin ya aradan qaldırılması, ya da xarici iş adamlarına da həmin qaydaların tətbiq olunması başa düşülür. Nəticədə, yerli sahibkarlar xidmət sektorunda fərqli rejimlə deyil, xaricilərlə eyni olan liberal sistemdə fəaliyyət göstərməli olurlar. Bu isə onların xarici kompaniyalarla bərabər səviyyədə rəqabət aparmaqlarına gətirib çıxaracaqdır.

Qeyd edək ki, indiki vəziyyətdə hökumət danışıqları apardıqda xidmətlər bazarının liberallaşdırılması ilə bağlı öhdəliklər götürərkən özəl sektorun iştirakı olmadan onların adından qərar verməli olur. Yuxarıda göstərdiyimiz məsələlərə əsaslanaraq deyə bilərik ki, xidmətlər üzrə danışıqların predmetini təşkil edən problemlər yerli sahibkarların mənafelərinə toxunduğu üçün onların həmin prosesə cəlb olunması zəruridir. Yəni, həmin öhdəliklərin sahibkarlara necə təsir edəcəyini yerli iş adamları daha yaxşı bildiyindən bu sahə üçün tələb olunan öhdəlikləri hökumət orqanlarına onlar bildirməlidirlər. Lakin, təklifləri yalnız xidmət müəssisələrindən deyil, həmçinin, həmin xidmətlərin istehlakçısı olan sahibkarlardan da yığmaq lazımdır. Çünki, xidmət sferasında fəaliyyət göstərən təsərrüfat subyektləri xidmətlər bazarının qapalı olması fikrini irəli sürdükləri halda istehlakçılar bu bazarın liberallaşdırılmasını, xidmətlərin qiymətinin ucuzlaşmasının və keyfiyyətinin yüksəlməsinin tərəfdarıdırlar. Odur ki, danışıqlar prosesinə təkliflərin verilməsi zamanı da bu cür ikili yanaşmanın ortaq məxrəcini tapmaq lazımdır. Belə olduğu təqdirdə Azərbaycan hökuməti yerli sahibkarların fikirlərinə və rəylərinə əsaslanaraq danışıqlar aparılan ölkələrə öhdəliklərin götürülməsinin mümkün olub-olmamağı üzrə əsaslı arqumentlərini irəli sürə bilərlər.

Qeyd edək ki, Diaqram 5.6 göstərildiyi kimi sahibkarlar aşağıdakı xidmət sahələrinin liberallaşdırılmasını və burada xarici iş adamlarının sərbəst fəaliyyət göstərmələrini istəyirlər.




**Diaqram 5.6. Sahibkarların liberallaşdırılmasını istədikləri xidmət sektorları**

Qeyd edək ki, Diaqram 5.6-dakı variantları seçən sahibkarların əksəriyyəti həmin xidmət sektorlarında fəaliyyət göstərənlər deyil, əksinə onların istehlakçısı olan sahibkarlardır. Ona görə də, onlar öz münasibətlərini xidmət müəssisələrinin mənafeləri baxımından bildirməyiblər. Göründüyü kimi sahibkarların əksəriyyəti ən çox bank sektorunda islahatların aparılmasını istəyirlər. Bu da sahibkarların bankların kreditlərin alınması, ödənişlərin edilməsi, köçürmələrin aparılması, müəssisənin hesabının açılması və idarə olunması kimi xidmətlərindən daha çox istifadə etmələri ilə bağlıdır. Ümumiyyətlə, Diaqram 5.6-də sahibkarların verdikləri cavabların sayı reallıqda həmin sektorların liberallaşdırılması imkanları ilə üst-üstə düşür. Yəni, həqiqətən bank sektoru digər sektorlara nisbətən daha çox inkişaf edib. Elə bu səbəbdəndir ki, hazırda digər sahələrə nisbətən bank sektoru daha çox liberallaşdırılmışdır. Çünki, xarici bank kapitalının yerli bank kapitalında iştirakına məhdudiyyətlər qoyulmur (yalnız Qanunda Milli Bankın belə məhdudiyyət qoymaq səlahiyyəti istisna olmaqla), bankların yerli filiallarının açılmasına imkan verilir və s. Lakin ÜTT-nin üzv dövlətləri danışıqlarda əlavə olaraq Milli Bankın xarici bank kapitalının yerli bank kapitalında iştirakına məhdudiyyət tətbiq etmək hüququnun ləğv edilməsini və bunun qanunda təsbit edilməsini, xarici bankların ölkəmizdə birbaşa filiallar açmasına icazə verilməsini, xarici bankların Azərbaycandakı filiallarında inzibatçılardan birinin Azərbaycan Respublikasının vətəndaşı olması tələbinin ləğv edilməsini də tələb kimi irəli sürürlər.

Sahibkarlar tərəfindən liberallaşdırılması istənilən digər bir sektor isə telekommunikasiya sektorudur. Azərbaycanın ÜTT-yə üzvlüyü prosesində bu sektorda üzv dövlətlərin qoyduğu tələblər "Aztelekom"un müstəsna hüququnun ləğv edilməsi, xidmətlər göstərilməsinin birinci üsulu üzrə (ÜTT-nin üzvü olan bir ölkə ərazisindən digər üzv ölkənin ərazisinə xidmətin göstərilməsi- telefon, poçt və s.) heç bir məhdudiyyətin qoyulmaması, kompüter xidmətləri sahəsində xidmətlər göstərilməsinin birinci üsulu üzrə öhdəliyin götürülməsi ilə bağlıdır. Bir sıra sahibkarların fikrincə

telekommunikasiya sektorunun əsasən dövlətin mülkiyyətində olması bu sahənin inkişafını ləngidən amillərdəndir. Belə ki, rəqabətin olmaması bu sektorda yeni texnologiyaların tətbiq edilməsi və tariflərin aşağı düşməsinin qarşısını alır. Lakin, sahibkarlardan bəzisi bunun əksinə olaraq telekommunikasiya sektorunun dövlətin inhisarçılığında qalmasının tərəfdarıdır. Səbəbini isə bu sektoru özəlləşdirildiyi halda digər ölkələrdə olduğu kimi adi şəhərdaxili telefon xidmətlərinin də ödənişli əsaslarla göstərməsi ehtimalının olması ilə əsaslandırırlar.

Sığorta sahəsinə gəldikdə isə Diaqram 5.6-dan göründüyü kimi sahibkarların az bir qismi bu sektorun liberallaşdırılmasının tərəfdarıdır. Qeyd edək ki, Azərbaycanda sığorta bazarı hələ də yetərincə inkişaf etməyib və əhalinin sığorta xidmətlərindən istifadə səviyyəsi o qədər də yüksək deyil. Bu səbəbdən də yerli sığorta şirkətləri özlərinin rəqabətqabiliyyətliliklərini beynəlxalq səviyyəyə uyğun inkişaf etdirə bilməyiblər. Fikrimizcə, yerli sığorta şirkətləri Azərbaycanın ÜTT-yə üzvlüyündən sonra ölkəyə gələcək xarici şirkətlər qarşısında mövcud mövqelərini qorumaq üçün indidən rəqabətqabiliyyətliklərini gücləndirmək haqqında fikirləşməlidirlər. Yeri gəlmişkən, xidmətlər üzrə danışıqlarda sığorta bazarının tam liberallaşdırılması və xarici hüquqi və fiziki şəxslərin bu sahədə fəaliyyətinə heç bir məhdudiyyətin qoyulmaması, sığorta şirkətlərinin nizamnamə kapitalında xaricilər üçün müəyyən edilmiş məhdudiyyətin aradan qaldırılması, xarici sığorta şirkətlərinin Azərbaycan ərazisində birbaşa filiallarının və nümayəndəliklərinin açılmasına icazə verilməsi, xarici kapitalın iştirakı ilə yaradılmış birgə sığorta şirkətlərində İdarə Heyətinin üzvlərinin yarısının əcnəbilərdən ibarət olması, müdir və ya onun müavinlərindən birinin Azərbaycan Respublikasının vətəndaşı olması tələbinin ləğv edilməsi məsələləri üzvlər tərəfindən irəli sürülür.

### *5.5. Kənd təsərrüfatı üzrə çoxtərəfli danışıqlar*

Sorğu aparılan sahibkarlardan 18-i kənd təsərrüfatı üzrə çoxtərəfli danışıqlarda iştirak etmək istəyir ki, onlar da əsasən fermer təsərrüfatlarının rəhbərləridir.. Kənd təsərrüfatı üzrə çoxtərəfli danışıqlarda əsas məsələlər bu sahəyə ayrılan daxili yardımın illik kənd təsərrüfatı məhsul istehsalının 5 və ya 10 faizi miqdarında olması, istehsal olunmuş məhsullara ixrac rüsumlarının tətbiq edilməməsi və hal-hazırda mövcud olan vergi güzəştlərinin aradan qaldırılması ilə bağlıdır. Fermerlər də məhz bu kimi məsələlərdə, eləcədə kənd təsərrüfatı sahəsində hər hansı öhdəliklərin götürülməsində yaxından iştirak edə bilərlər. Fermerlər verdikləri təkliflərdə əsasən kənd təsərrüfatına verilən vergi güzəştlərinin qüvvədə saxlanılması, danışıqlarda subsidiyaların həcminin minimum 10 % əldə edilməsi və kənd təsərrüfatının inkişafı üçün kompleks tədbirlərin görülməsini məsələlərini qabardıblar. Subsidiyaların verilməsi haqqında öz şərhlərimizi yuxarıda qeyd etdiyimizə görə, onları burada təkrar vermirik.

## 6. Sahibkarların xarici ticarət üzrə aparılan əməliyyatların mövcud vəziyyətinə yanaşmaları

Sorğu blanklarında ÜTT və onun fəaliyyəti ilə yanaşı ümumilikdə, Azərbaycanın xarici ticarət əlaqələrində ixrac əməliyyatlarının mövcud vəziyyətinin xarakterizə edən suallar qoyulmuşdur. Çünki sahibkarların Azərbaycanın ÜTT-yə üzvlüyü prosesinə maraq göstərmələri onların nə dərəcədə ixrac fəaliyyəti ilə məşğul olmalarından asılıdır. Təəssüflər olsun ki, sahibkarlarımız məhsul ixracı sahəsində o qədər də güclü nailiyyətlər əldə etməyiblər. Qeyd edək ki, Azərbaycanın ÜTT-yə üzvlüyünün daxili bazara verdiyi səmərələrlə yanaşı yerli sahibkarların xarici bazarlara çıxışının asanlaşdırılması baxımından da bir sıra əhəmiyyətləri vardır. Çünki, ÜTT-yə üzv ölkələrdən hər hansı biri nə qədər çox məhsul ixrac edərsə, ÜTT-nin formalaşdırdığı münbit şəraitdən bir o qədər çox səmərə əldə edər. Misal üçün qeyd edək ki, hal-hazırda Azərbaycan sahibkarları hətta ən yaxın tərəfdaş olduğumuz dövlətlərə belə məhsul ixrac edən zaman həmin ölkələrin ÜTT-nin üzvlərinə tətbiq etdikləri rejimdən daha sərt və diskriminasiyalı rejimlə üzləşirlər. Azərbaycanın ÜTT-yə üzv olduğu təqdirdə həmin ölkələrin digər üzv dövlətlərə verdikləri bütün üstünlüklərdən milli sahibkarlarımız da yararlana biləcəklər.

Sahibkarlar onların öz mallarını xaricə çıxarmasına mane olan amillər kimi aşağıdakıları qeyd etmişlər.




**Diaqram 6.1. Sahibkarların məhsul ixracına mane olan amillər**

Bu sualı qoymaqda məqsəd yerli sahibkarların istehsal etdikləri məhsulları ixrac etməkdə qarşılaşdıqları problemləri müəyyənləşdirmək və onların həll olunmasında Azərbaycanın ÜTT-yə üzvlüyünün əhəmiyyətini önə çəkməkdir. Ümumiyyətlə, sahibkarların ixraca meyl etməməklərinin müəssisə daxili və xarici olmaqla bir sıra səbəbləri vardır. Müəssisə daxili amillər dedikdə onların istehsal etdikləri məhsulların rəqabətqabiliyyətliliyinin aşağı olmasını, maliyyə resurslarının çatışmazlığını, ixraca yönəlmiş marketinq araşdırmalarının aparılmamasını, xarici bazarlara çıxmaqda maraqlı olmamalarını və s. göstərmək olar. Xarici amillərə isə əsasən inhisarçılığın mövcudluğunu, ixrac prosedurlarının mürəkkəbliyini, gömrükdə bir sıra süni əngəllərin mövcudluğunu, xarici ölkələrin gömrük prosedurlarının və tələblərinin ağır olmasını və s. aid etmək olar. Qeyd edək ki, Diaqram 6.1-dəki variantlar da məhz yuxarıda göstərilən amillərin nəzərə alınması əsasında müəyyənləşdirilmişdir. Həmin diaqramdan göründüyü kimi sahibkarlar problemlərin əsasən xarici səbəblərdən yarandığı fikrini irəli sürürlər. Bu isə onu göstərir ki, sahibkarlar müəssisədaxili əngəllərin qabardılmasına çox da diqqət etmirlər. Fikrimizcə, Azərbaycanın ÜTT-yə üzvlüyü çərçivəsində təsərrüfat subyektlərinin özlərində islahatların aparılmasına bu qədər səthi yanaşılması yerli sahibkarların əsas problemlərindəndir. Çünki sahibkarlar məhsul ixrac etmək üçün ilk növbədə idxal – ixrac əməliyyatlarını dərindən mənimsəməli, marketinq araşdırmaları aparmalı və tədqiqatların nəticəsi olaraq onların

məhsullarına olan kəmiyyət və keyfiyyət tələblərini öyrənərək rəqabətə davamlı məhsullar istehsal etməlidirlər.

Yuxarıda şərh etdiyimiz kimi sahibkarları xarici amil kimi narahat edən əsas problemlərdən biri onların ixrac zamanı gömrük məntəqələrində çətinliklər və süni əngəllərlə qarşılaşmalarıdır. Əvvəldə qeyd olunduğu kimi Azərbaycanın ÜTT-yə üzvlüyünün gömrük proseduralarının təkmilləşməsi baxımından bir sıra səmərələri olacaq. Belə ki, ÜTT, üzv olmaq istəyən ölkədən gömrüklə bağlı qanunvericilikdə gömrük qiymətləndirilməsi, rüsumlarının dərəcələri, rəsmiləşdirməyə görə alınan yığımlar, vergilər və vergi azadolmaları, malın mənşə ölkəsinin müəyyənləşdirilməsinə dair müddəaların ÜTT sazişlərinin tələblərinə uyğunlaşdırılmasın tələb edir. Həmçinin ÜTT sazişlərində, sahibkarların idxal-ixrac fəaliyyətlərinə əsassız olaraq əngəllər yaradılmaması və ticarət hüquqlarının təmin olunması tələblərini irəli sürür. Lakin ÜTT bu kimi tələbləri əsasən idxal üçün nəzərdə tutur. Bununla belə ÜTT-nin Tariflər və Ticarət üzrə Baş Sazişinin (GATT) XI maddəsinə əsasən məhsul ixracına da məhdudiyyətlərin qoyulmamağı tələb olunur.

İxraca tələb olunan xərclərin yüksək olması isə sahibkarların həm daxili, həm də xarici problemidir. Belə ki, sahibkarların maliyyə imkanlarının aşağı olması onlara ixrac üçün zəruri xərcləri ödəməyə imkan vermir. Bu halda sahibkarların maliyyə durumunun yaxşılaşdırılması zəruridir. Xarici köməklik kimi isə sahibkarların ixrac üçün xərclərinin azaldılması və ya məhsul ixracında onlara dövlət tərəfindən dəstəyin göstərilməsidir. Məhz bu məsələyə ÜTT-yə üzvlüyün təsiri olacaq. Birincisi, ona görə ki, Azərbaycanın ÜTT-yə üzvlüyü nəticəsində sahibkarlara gömrük orqanları tərəfindən göstərilən xidmətlərə görə alınan yığımların səviyyəsi aşağı düşəcək. İkincisi isə, rəqabətin artması nəticəsində ixracla bağlı olan daşıma, saxlama, sığorta və digər xidmətlərin dəyəri ucuzlaşacaqdır. Nəticədə sahibkarların məhsul ixrac etmək imkanları artacaq. Sahibkarların ixrac əməliyyatlarına dövlət tərəfindən dəstəyin göstərilməsi və subsidiyalaşdırılması məsələsinə gəldikdə isə bütün bunlar kənd təsərrüfatı sektoru istisna olmaqla, ÜTT-nin qadağa qoyduğu məsələlərdəndir.

Sahibkarların xarici ticarətdə qeyd etdikləri növbəti problem ixracda inhisarçılığın mövcudluğu ilə bağlıdır. Lakin bu gün Azərbaycanda inhisarçılığın olması ehtimalı ixracda deyil, idxalda daha çoxdur, baxmayaraq ki, ixracda da inhisarçılıq ola bilər. Odur ki, 14 sahibkarın bu variantı seçməsi tam subyektiv xarakter daşıyır. Malların keyfiyyətinin aşağı olması da əsas səbəblərdən biri olduğu halda sahibkarlardan yalnız 9-u bunu səmimi etiraf edə bilib.

Qeyd edək ki, sahibkarlardan 9-u xarici ölkələrin bazarlarına daxil olmaq üçün qoyulan tələblərin yüksək olması probleminin mövcudluğunu da önə çəkmişdilər. Ümumiyyətlə, Azərbaycan ÜTT-yə üzv olduqdan sonra milli sahibkarlara xarici dövlətlərin bazarlarında ədalətli və bərabər hüquqlu ticarət etmək imkanı yaranacaqdır. Odur ki, sahibkarların ÜTT-yə üzvlük

nəticəsində əldə edəcəyi səmərələrdən biri də ixrac zamanı digər ölkələrin gömrük məntəqələrindən daha asan və fərqli rejimə məruz qalmadan keçmələridir. Hazırda sahibkarlar ixrac zamanı digər ölkələrin ərazilərində aşağıdakı diaqram 6.2.-də göstərilmiş problemlərlə qarşılaşırlar ki, bunlar da ÜTT-yə üzvlükdən sonra aradan qalxacaq.




**Diaqram 6.2. Sahibkarların ixrac zamanı digər ölkələrin ərazilərində qarşılaşdıqları problemlər**

Diaqram 6.2-dən göründüyü kimi sahibkarların əksəriyyəti gömrük məntəqələrində xərclərinin çox çıxmasından şikayətlənirlər. Yeri gəlmişkən qeyd edək ki, bu xərclərin tərkibinə aid olan gömrük rüsumlarında Azərbaycan ÜTT-yə üzv olduqdan sonra azalmalar olacaqdır. Belə ki, idxalçı ölkə ÜTT-yə üzv olan zaman ikitərəfli danışıqlarda rüsumların hansı dərəcələri üzrə razılaşıbsa, digər üzv ölkələr kimi Azərbaycan sahibkarlarına da həmin rüsumları tətbiq edəcək. Hazırda isə həmin rüsumlar Azərbaycan məhsullarına şamil edilmir.

Hazırda idxala kvota, lisenziyalaşdırma və bu kimi kəmiyyət məhdudiyyətlərinin qoyulması əvvəldə qeyd etdiyimiz kimi ÜTT-nin üzvü olan ölkələr üçün məhdudlaşdırılır. Ona görə də biz idxalçı ölkə kimi bu tədbirlərin tətbiqinin aradan qaldırılmasından nə qədər itirsək də, ixracatçı ölkə kimi bir o qədər qazanacağıq.

Digər cavab variantları subyektiv xarakter daşıdığına və idxalçı ölkədən asılı olduğuna görə burada geniş şərhə ehtiyac görmürük. Ümumilikdə, yekun olaraq onu qeyd edək ki, sahibkarların məhsul ixrac etməsinin qarşısını alan əsas amillər həm Azərbaycan gömrük məntəqələrində, həm

də idxalçı ölkənin gömrük məntəqələrində çətinliklərin və süni əngəllərin yaradılması və ixrac üçün tələb olunan xərclərin yüksək olmasıdır.

## 7. Araşdırmanın nəticələrinin qiymətləndirilməsi

Qeyd edək ki, sorğu blankı hazırlanarkən qiymətləndirmə parametrləri müəyyənləşdirilmiş və araşdırma həmin parametrlər üzrə aparılmışdır. Burada Azərbaycanın ÜTT-yə üzvlüyü çərçivəsində yerli sahibkarların mövcud problemlərini aşkarlamaq və onların həlli yollarını göstərmək qarşıya məqsəd kimi qoyulmuşdur. Məhz bu səbəbdən araşdırma nəticələrinin qiymətləndirilməsi aşağıdakı 10 göstərici üzrə müəyyənləşdirilmişdir:

1. Sahibkarların ÜTT haqqında məlumatlılıq səviyyəsi.
2. Sahibkarların ÜTT haqqında yanlış təsəvvürləri.
3. Sahibkarların ÜTT-nin gözlənilən səmərələr haqqında bilikləri.
4. Sahibkarların ÜTT-yə üzvlüyün onların daxili bazardakı mövqelərinə gözlənilən təsirləri haqqında mövcud təsəvvürləri.
5. Sahibkarların ÜTT-nin daxili bazarın qorunması alətləri haqqında məlumatlılıq səviyyəsi.
6. Sahibkarların ÜTT-yə üzvlük prosesində iştirak etməyə maraqları.
7. Sahibkarların üzvlük prosesində iştirak imkanları haqqında məlumatlılığı.
8. Sahibkarların üzvlük prosesinə cəlb edilməsi istiqamətində görülən tədbirlərin effektivliyi.
9. Sahibkarların məhsul ixracına maraqlarının səviyyəsi.
10. Sahibkarların məhsul ixracına yaradılan şəraitin effektivliyi.

Aparılan təhlillərin nəticələri aşağıdakı diaqramda əks olunmuşdur.




**Diaqram 7.1. Müəyyənləşdirilən 10 göstərici üzrə araşdırma nəticələri**

## 8. Sorğu aparılmış rayonlar araşdırma nəticələrinin üzrə müqayisəsi

Araşdırma aparılan rayonlarda sorğu suallarına verilən cavablar say etibarı ilə bir-birindən fərqlənir. Belə ki, bir rayonda respondentlərin çoxu bir variantı seçdiyi halda, digər rayonda çoxluq həmin suala cavab olaraq digər variantı seçib. Rayonlardakı bu cür tendensiyaları müqayisə etdikdə sahibkarların ÜTT haqqında məlumatlılıq səviyyəsini, üzvlük prosesinə münasibətlərindəki fərqləri və digər göstəricilərə müxtəlif yanaşmalarını aşkara çıxarmaq olur. Ancaq bir çox məsələlər üzrə rayonlardakı sahibkarların demək olar hamısı eyni fikirdədirlər. Əldə edilən nəticələr əsasında hansı rayonda ÜTT haqqında məlumatın nə dərəcədə olması və rayonlara xas hansı fərqli yanaşmaların olduğu və araşdırma aparılan rayonlar üzrə görülməsi zəruri olan xüsusi tədbirlər müəyyənləşdirilmişdir. İlk növbədə sahibkarların rayonlar üzrə ÜTT haqqında məlumatlılıq səviyyəsini müqayisəli təhlil edək. Sahibkarların ÜTT-nin mahiyyətinə aid suallara verdikləri cavablardan aydın olur ki, Gəncə sahibkarları bu məsələdə daha çox doğru cavab yazmışdılar. Qeyd

edək ki,  seminar və sorğu keçirilən rayonlar içərisində Şəki rayonu bir neçə göstərici üzrə digər rayonlardan irəlidədir. Bunu aşağıda sadalanan göstəricilər əsasında da sübut etmək olar:

- Keçirilən tədbirdə fəallıqlarına və cavablandırılan sorğu blanklarının çox olmasına görə;
- Azərbaycanın ÜTT-yə üzvlüyü prosesinə dair təklif verən sahibkarların sayına görə;
- Sahibkarların sorğu blankını daha düzgün cavablandırmasına görə.

Şəki sahibkarlarının əksəriyyəti ÜTT-yə aid ümumi sualları düzgün cavablandırmışlar. Lakin doğru və yanlış cavabların nisbətinə görə Şəki rayonu bəzi rayonlardan geri qalır. Ümumilikdə rayonlarda sorğuya cəlb olunmuş sahibkarların ÜTT-yə aid suallara verdikləri düzgün cavabların faiz nisbətini aşağıdakı kimi göstərmək olar.




**Diaqram 8.1. Sahibkarların verilən suallara verdikləri düzgün cavabların faiz nisbəti**

Onu da qeyd edək ki, ayrı-ayrı rayonlardakı sahibkarların ÜTT-yə üzvlüyün müxtəlif aspektlərinə münasibətləri də  fərqli olmuşdur. Belə ki, ÜTT-nin təsirlərini araşdırma aparılan rayonların sahibkarları fərqli qiymətləndirirlər. Məsələn, Gəncə sahibkarlarının çoxu üzvlüyün daha ucuz texnika və texnologiyalar əldə edilməsinə şərait yaradacağını fikirləşdiyi halda, Şəki sahibkarlarının çoxu üzvlüyün inhisarçılığın və korrupsiya hallarını aradan qaldıracağını düşünürlər Gəncə sahibkarlarının əksəriyyəti isə ÜTT-yə üzvlüyün istehlak bazarına təsiri kimi daha ucuz və keyfiyyətli məhsulların artmasını düşünürlər. Bunun tam əksinə olaraq isə ÜTT-yə heç bir aidiyyəti olmadığı halda  Əlibayramlı sahibkarları nədənsə daha çox əhalinin yerli məhsullara üstünlük verəcəyi fikrindədir. Ümumiyyətlə, doğru cavablarla yanaşı verilən yanlış cavabların da sayına görə rayonlar bir birindən fərqlənir. Bu isə müxtəlif rayonlarda ÜTT haqqında fərqli yanlış fikirlərin yayılması deməkdir.

Ümumi biznes mühitə ÜTT-nin təsirlərinə gəldikdə isə rayonlarda bu məsələyə də fərqli yanaşmalar var. Şəki sahibkarlarının çoxu haqlı olaraq üzvlükdən sonra rəqabətin artacağını düşündüyü halda, Gəncə sahibkarlarının əksəriyyəti qanunvericilik bazasının təkmilləşəcəyini fikirləşir. Rəqabətin artdığı təqdirdə isə dövlətin daxili bazara dəstək tədbiri kimi Lənkəran, Quba, Əlibayramlı və Gəncə sahibkarları yerli sahibkarlara subsidiyaların verilməsini məqsədəuyğun hesab edirlər. Yalnız Şəki sahibkarları bu variantı dəstəkləməklə yanaşı idxala kəmiyyət məhdudiyyətlərinin qoyulmasını da zəruri hesab edir.

Azərbaycanın ÜTT-yə üzvlüyü prosesində sahibkarların iştirakına gəldikdə isə deyə bilərik ki, bu məsələdə bütün rayonların iş adamları eyni fikirdədirlər. Ancaq üzvlük prosesinin hansı istiqamətində iştirak məsələsinə gəldikdə burada da rayonlar üzrə müxtəlif yanaşmalar var. Gəncə və Əlibayramlı sahibkarlarının əksəriyyəti mallar üzrə ikitərəfli danışıqlarda iştirak etməkdə maraqlı olduğu halda Şəki sahibkarlarının çoxu isə Qanunvericilik bazasının təkmilləşməsində təmsil olunmaq arzusunda olduqlarını bildirmişlər. Bu cür yanaşmanın kökündə isə Gəncə və Əlibayramlı sahibkarlarının məhsul idxalı ilə daha çox məşğul olması və bu üzdən tariflərin onlar üçün mühüm əhəmiyyət kəsb etməsi, Şəki sahibkarların əksəriyyətinin isə yalnız daxili bazarda fəaliyyət göstərməsi səbəbi ilə qanunvericiliyin təkmilləşdirilməsində maraqlı olması durur.

Mallar və xidmətlər üzrə ikitərəfli danışıqlara gəldikdə isə bütün rayonlardakı sahibkarlar gömrük tariflərinin aşağı endirilməsini istəyirlər. Xidmətlər üzrə danışıqlarda liberallaşdırılması məqsədəuyğun hesab edilən sektor üzrə də sahibkarların fikirləri üst-üstə düşür. Yəni, bütün rayonlardakı sahibkarlar çoxluqla bank sektorunun liberallaşdırılmasının tərəfdarıdır. Qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində də rayonlar üzrə müxtəlif prioritetlər var. Belə ki, Şəki və Quba sahibkarları üçün gömrük qanunvericiliyinin , digər rayonlar üçün isə vergi qanunvericiliyinin təkmilləşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Deməli, həmin rayonlar seçdikləri sahədəki qanunvericilikdə daha çox boşluqlar olduğunu hiss edirlər.

Maraqlı məqamlardan biri də müxtəlif rayonlarda məhsul ixracı ilə məşğul olan sahibkarların hansı problemlərlə qarşılaşmasıdır. Quba və Lənkəran sahibkarları məhsul ixrac etməməklərinin səbəbini bunun üçün tələb olunan xərclərin yüksək olmasını, Şəki sahibkarları inhisarçılığın buna imkan verməməsini, Gəncə sahibkarları gömrükdə süni əngəllərin yaradılmasını, Əlibayramlı sahibkarları isə həm xərclərin yüksək olmasını, həm də məhsullarının keyfiyyətinin aşağı olmasını göstərirlər. İxrac zamanı digər ölkələrin ərazisində qarşılaşdıqları çətinliklər kimi isə Lənkəran, Şəki və Gəncə sahibkarları gömrük rüsumlarının, vergilərin, yığımların və digər ödənişlərin yüksək olmasını, Gəncə sahibkarları isə gömrük qiymətləndirilməsi və digər əməliyyatlarının düzgün aparılmaması və çox vaxt tələb etməsini qeyd edirlər.

Beləliklə, müqayisəli təhlildən rayonlarda sahibkarların ÜTT haqqında biliklərindəki fərqlər və eləcədə Azərbaycanın üzvlük prosesinə müxtəlif yanaşmalar ortaya çıxır. Rayonlar üzrə ÜTT-nin

hansı məsələləri üzrə biliklərin aşağı olmasını əsas götürərək gələcəkdə dövlət və qeyri dövlət təşkilatları tərəfindən həmin məsələlər üzrə maarifləndirici tədbirlərin görülməsi zəruridir. Eləcədə rayonlar üzrə sahibkarların Azərbaycanın üzvlük prosesinin müxtəlif məqamlarına fərqli yanaşmalarının aidiyyəti dövlət orqanları tərəfindən araşdırılması və üzvlük prosesində həmin məsələlərin nəzərə alınması məqsədəuyğun hesab edilir.